AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ
ABDULHAMİT AVŞAR

# TÜRKİYƏNİN İSTİQLAL MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN TÜRKLƏRİ

**Türkiyə arxiv sənədləri və mətbuatında (1919-1922)**

**AzAtaM**
**Bakı-2007**

**Elmi redaktor:**
**NİZAMİ CƏFƏROV**
**AMEA-nın müxbir üzvi, professor, millət vəkili.**

**A.Avşar.**
Türkiyənin İstiqlal müharibəsində Azərbaycan türkləri
Bakı, AzAtaM, 2007.

TRT televiziyasının Bakı təmsilçisi Abdulahmit Avşarın bu əsərində I Dünya müharibəsi dönəmində və İstiqlal savaşında Azərbaycan-Türkiyə arasındakı siyasi, iqtisadi, hərbi əlaqələr araşdırılıb. Tədqiqatçı öz əsərində arxiv sənədlərinə və o zamankı türk yazılı mətbuatına istinad etmişdir. Kitab oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**AzAtaM, 2007**
**A.Avşar, 2007**

## İÇİNDƏKİLƏR

Ön söz............................................................................................................5

Giriş...............................................................................................................7

Azərbaycan türklərinin İstiqlal savaşı öncəsi dəstəkləri..........................10

Mondros sonrası Azərbaycan-Türkiyə əlaqələri......................................12

1)Azərbaycan Xalq Cumhuriyyəti dövrü...............................................12

2)Azərbaycan Şura (Sovet) hökuməti dövrü............................................24

a)Siyasi əlaqələr..........................................................................................25

b)İqtisadi əlaqələr........................................................................................34

c)Hərbi əlaqələr............................................................................................40

Sonuç...........................................................................................................43

Ədəbiyyat....................................................................................................44

## Ön söz

Türkiyə və Azərbaycanın eyni millətin iki dövləti olduğu şübhəsizdir. Ancaq bu qardaşlığın qorunması, gəlişməsi, (inkişaf etməsi) dərinləşməsi üçün ölkələr arasında tarixi əlaqlərin çox yaxşı araşdırılması və günümüzün insanına hərətərfli tanındılması böyük önəm daşımaqdadır. Çünki, özləlliklə sovet dövründə digər qardaş coğrafiyalarda olduğu kimi bu iki qardaş ölkə arasında tarixi və mədəni bağların da zəifləməsi, hətta yox edilməsi üçün xüsusi səy göstərilmiş və sistemli bir dövlət siyasəti yürüdülmüşdür.

Digər yandan, müstəqil dövlət olaraq varlğını davam etdirməsinə baxmayaraq, soyuq müharibə dövründə "blok" anlayışının təsiri ilə bütün Sovetlər Birliyinin tək rəng olaraq görülməsi və "Rus" olaraq tanınması başda olmaq üzrə, çeşidli səbəblərdən Türkiyədə də qardaş coğrafiyalar mövzusunda çox böyük bir bilik çatışmamazlığı ortaya çıxmışdır. Türkiyə tarixçiliyində də Orta Asiya bir yana, Azərbaycan haqqında belə ciddi boşluqlar yer almış, bu coğrafiyalar bir növ "qədimdə qalmış türklər" anlayışıyla dəyərləndirilərək, var olan həqiqətə göz yumdurulmuşdur.

Bir sözlə, uzaq keçmiş bir yana, XX əsrin ilk rübündə baş vermiş hadisələr haqqında belə hər iki tərəfdə doğru bilgi alına biləcək qaynaqlar olduqca əlçatmaz qalmışdır. Gərçi, bu qardaş dövlətlərin müstəqilliklərinə qovuşmalardan sonra mətbuatda ciddi irəliləyiş görünsə də, bu dəfə daha çox 1990-cı illərdən sonrakı gəlişmələr yer verildiyi diqqət çəkməkdədir.

Halbuki, Anadoludan Türküstana uzanan böyük coğrafiyadakı tarixi bir, dili bir, dini bir, mədəniyyəti bir insanların bir-birini tanımaları üçün XX əsrin əvvəllərində yaşayan hadisələrin bilinməsinin və yaxşı təhlil edilməsinin çox önəmli olduğu aydındır.

TRT Bakı təmsilçiliyinə təyin edildiyim gündən etibarən çalışmalarıma yön verən ən önməli cəhətlərdən biri də bu anlayış oldu. Azərbaycanı çeşidli yönlərilə tanıdan çeşidli proqramlarla birlikdə, o günlərdə yaşanan olayların anladılması və bilinməsi üçün də xeyli səy göstərməli oldum. Bu mənada, Azərbaycan tarixi üçün çox önəmli bir dönüş nöqtəsi olan 1918-cı ildə Qafqaz İslam Ordusunun hərəkəti ilə bağlı çeşidli layihələri həyata keçirdik.

Digər yandan, hələ Türkiyədə TRT üçün hazırladığımız "Son Tanıklar" sənədli filmin çəkilişləri vaxtı görüşdüyümüz bir elm adamının Azərbaycan türklərindən ibarət olan bir hərbi birliyin Anadoluda milli mübarizəyə qoşulduğu haqqında sözləri zehnimizdə iz buraxmışdı. Bundan sonra Türkiyədə bir araşdırma aparmağa başlamışdıq. Bu araşdırma mən Azərbaycana gəldikdən sonra da aparıldı. Və istər rəsmi dövlət arxivləri, istər o dövrün mətbuatı, istərsə də mövzu ilə bağlı çalışan elm adamlarının fikirləri və əsərlərinə müraciət etdiyimizdən çox sayda maraqlı bilgilər əldə edə bildik.

Əlinizdəki kiçik həcmli əsər bu araşdırmalardan əldə edilən bilgilərdən yola çıxaraq hazırlanan bir məqalənin gözdən keçirilmiş halıdır. Özü də çox çətin bir dövrdən keçməsinə baxmayaraq, əlinizdəki bütün imkanlarla Türkiyənin yanıda olmağa çalışan Azərbaycanın bu yardımlarını xatırlmağı qarşısına məqsəd qoyan bu əsərin meydana çıxmasında ilk tanış olduğumuz gündən etibarən təmsilçiliyimizin fəaliyyətinə böyük dəstək verən, hər mövzuda bizdən dəstəklərini əsirgəməyən Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Milli Elmlər Akademiyasının müxbir üzvi, millət vəkili, dəyərli elm adamları prof. Dr. Nizami Cəfərova böyük yardımlarına görə minnətdarlığımı bidirirəm. Türkiyə arxivlərindəki bilgilərə, bu mövzuda olan ədəbiyyat və mütəxəssislərin fikirlərini ala bilməyim üçün yardım edən, alınan müsahibələri yazıya çevirərək mənə göndərən Figen Bayanoğluna, Türkiyə türkcəsi ilə yazdığım bu yazını Azərbaycan türkcəsinə uyğunlaşdıran Ağası Huna təşəkkürümü bir borc bilirəm.

Çalışmalarımın iki ölkə arasında var olan mədəni əlaqələrin daha da gəlişməsinə bir az da yardımçı olması mənim ən böyük xoşbəxtliyim olacaqdır.

## Giriş

XX əsrin əvvəllərində gərçəkləşən Türkiyə-Azərbaycan ilişkiləri iki dövlət və qardaş xalq arasındakı tarixi, dini və etnik yaxınlığı göstərməsi baxımından son dərəcə önməlidir. Bundan başqa, bir çox yönü ilə bugünki siyasi, iqtisadi və hərbi ilişkilərin təməlini təşkil edəcək xüsusiyyətlər daşımaqdadır. Bu mövzuda bu günə qədər aparılan araşdırmalar dönəmi hər tərəfdən aydınlatmaqdan hələ çox uzaq olsa da, mövzu ilə bağlı ədəbiyyat hər keçən gün artmaqdadır. Bu da şübhəsiz ki, sevindirici bir haldır.

Bəhs etdiyimiz dönəmdəki ilişkiləri iki ana başlıq altında ələ ala bilirik? Bunların ilki, I Dünya Savaşı sırasında ortaya çıxan və Nuru Paşa komandanlığındakı Qafqaz İslam Ordusunun (QİO) Bakını işğaldan qurtarması və ardından gələn Mondors atəşkəsi ilə bitən dönəmdir. Türk Qafqaz İslam ordusunun hərəkatı haqqındakı sənədlərdən başqa, bu ilk dönəmlə ilgili ədəbiyyat həm Azərbaycan, həm də Türkiyədə yox deyilə biləcək qədər azdır. Belə ki, bəhs etdiyimiz olaylarla ilgili ən dəqiq tarixi bəlgələr Çanaqqala Şəhidliyindəki Azərbaycandan gələn əsgərə aid məzar daşlarıdır, deyə bilərik.

İlk dönəmdə yaşanan olaylardan Türk Qafqaz İslam Ordusu haqqında özəliklə Azərbaycan tərəfində dəyərli bir bilgi olduğu söylənilə bilər. Hafizəsində yer tutan Anadolu türkləri ilə bağlı çox önəmli xatirə budur və Türkiyənin varlığını davam etdirən hadisə də bu olmuşdur. Bu olay eyni zamanda, XVI əsrin əvvəllərində iki coğrafiyanı bir-birindən ayıran acı qardaş qovğasının olumsuz imicini də tamamən aradan qaldıraraq, eyni millət olmaz duyğsunu yaşadan bir rol oynamışdır. Bunda o günləri görən və bolşevik rus-daşnak erməni birliklərinin qətliamına şahid olan, hərəkatın həyati rolunu başa düşən nəslin sovet dönəmi vaxtında bu olayların xatirələrini canlı tutmasının böyük önəmi olduğu söylənilə bilər.

Bunlarda əlavə olaraq, Türk Qafqaz İslam Ordusunun hərəkatının Azərbaycanın siyasi varlığının və ölkə coğrafiyasının xarici dünya tərəfindən qəbulunda oynadığı həyati əhəmiyyətli rol, Azərbaycan tərəfində istər periodik, istərsə də nəşr olunan əsərlər olaraq sayğı duyulacaq bir qaynaq toplusunun ortaya çıxmasına imkan yaratmışdır[1]. Eyni zamanda, Bakının qurtuluş günü olan 15

[1] Məsələn, tamamən türk Qafqaz İslam Ordusunun fəaliyyətləri mövzusunda Azərbaycanda nəşr edilən iri həcmli bir araşdırma üçün bax., Mehman Süleymanlı, Qafqaz İslam Ordusu və Azərbaycan, Bakı, "Hərbi Nəşriyyat", 1999. Yenə son olaraq 2006-cı ilin sentyabr ayında, "Şərq" qəzetinin baş redkatoru Akif Aşırlının imzası ilə adı çəkilən qəzetdə "Türk Ordusunun Azərbaycan zəfəri" adıyla, iri həcmli silsilə yazılar dərc etdirilmişdi. TRT, Bakı təmsilçiliyi də, Türk Qafqaz İslam Ordusunun hərəkatıyla bağlı "Meçhul Zabit", Türk Qafqaz İslam Ordusunun Azərbaycanda qalan əsgərlərinin yaxın adamları ilə "Kalanların hikayəsi" adlı sənədli filmlər hazırlamışdır. Mövzu ilə bağlı bir kitab da tamamlanmaq üzrədir. Ayrıca bu mövzuda dərc edilmiş bir yazı üçün bax., Abdulhamit Avşar, "Türk Kafkas İslam Ordusunun çoçukları", Bakı, "YOM" dərgisi, sayı 4, 2006, s. 110-115.

sentyabr tarixinin milli gün elan edilməsi də bu mövzunun hər keçən il meydana gəlməsində və mövzuyla bağlı çalışmaların artmasında önəmli funksiya daşımaqdadır.[2] Burada cürbəcür təşkilatların 15 sentyabr və Qafqaz İslam Ordusu mövzusunda keçirdikləri yarışmaların rolunu da qeyd etmək lazımdır [3].

Türkiyə ictimaiyyətində isə (QİO) ilə ilgili olaraq ciddi bir bilgi çatışmamazlığı gözə çarpmaqdadır. Azərbaycana gəlincə isə bir çox insan mövzudan agah ola bilməkdədir. Son zamanlarda bu çatışmamazlığın aradan qaldırılması üçün ən azından akademik səviyyədə çalışmaların sayının artacağı gözlənilməkdədir.[4]

XX əsrin əvvələrindəki əlaqələrdə qeyd edilməsi gərəkən ikinci önəmli mövzu isə Türkiyə türklərinin Anadolunu işğaldan qurtarmaq üçün yürütdükləri İstiqlal Savaşı[5] (1919-1922) zamanı iki qardaş ölkə arasındakı əlaqələrdir. Bu baxımdan ciddi bir qaynaq (mənbə) çatışmamazlığı diqqət çəkməkdədir. Bununla bağlı olaraq, müxtəlif xatirələrdəki bəzi bölmələr və daha geniş mövzulu əsərlərdə olan bir qism bilgilərdən başqa, doğrudan da heç bir mənbə yoxdur, demək olar. Halbuki, tarixin ən çətin sınaqlarından birindən keçən iki ölkə türklərinin dayanışmalarının göstərilməsi baxımından bu dönəmdə diqqət çəkiləcək çox önəmli cəhətlər vardır.[6]

Beləliklə, bu əsərimizin sərhədləri çərçivəsində, bəhs etdiyimiz bu dönəmdəki Türkiyə-Azərbaycan ilişkilərini Türkiyə arxivlərində ulaştığımız çeşidli sənədlərin və dönəmin Türkiyə mətbuatı işığında tədqiq etməyə çalışacağıq. Ancaq, Mustafa Kamal Paşanın Samsuna çıxması ilə başlayan Anadolu Milli Mübarizəsi öncəsində Azərbaycan türklərinin yadımları haqqında da söz demək istəyirəm.

---

[2] 15 sentyabr tarixindən əvvəl və sonra bütün Azərbaycan mətbuatında mövzu ilə bağlı olduqca çox və sanballı xəbər, proqram, araşdırma yazısı və s. yer almaqda, rəsmi və digər bütün təşkilatlar tərəfindən xatırlanmaqdadır.

[3] Məsələn, son olaraq 2006-cı ildə iki təşkilat tərəfindən bir daha belə yarışma elan edilmiş. və 15 sentyabr günü, Azərbaycanın ən böyük məkanlarından biri olan Heydər Əliyev adına sarayda keçirilən böyük bir tədbirdə ödüllər təqdim edilmişdir.

[4] Bu mövzuda Türkiyədə nəşr edilən və olayın hərbi yönümü sənədlərlə araşdıran bir çalışma üçün bax., Nasır Yüccer, Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azərbaycan və Dağıstan harekatı- Azərbaycan və Dağıstanın Bağımsızlığı Kazanması 1918., 2. Baskı, Ankara, "Genelkurmay Başkanlığı" yayınları, 2002. Bu mövzuda müxtəlif umiversitetlərin nəzdində, məsələn, ODTÜ-də diplom işləri və dissertasiyalar hazırlanmaqda olduğu kimi bilinməkdədir.

[5] Türkiyədə 1919-1922-ci illər ərzində aparılan milli mübarizə, ədəbiyyatda "İstiqlal Savaşı", "Qurtuluş Savaşı" və "Milli Mücadilə" olaraq üç cür adlandırılmaqdadır. Bu yazıda hər üç adda işlədiləcəkdir.

[6] İstiklal Savaşında Türküstan Türklərinin və yardımları mövzusunda 3 bölümlük "Kurtuluş Savaşında Azərbaycanlılar" adlı yeni bir bədii sənədli film, mən və Figen Baranoğlu tərəfindən hazırlanaraq TRT ekranlarında göstərildi. Və olduqca geniş bir maraqla qarşılandı. İndi də, bu çalışmanın bir davamı olaraq "Kurtuluş Savaşında Azərbaycanlılar" adlı yeni bir sənədli filmin çəkilişləri qurtarmaq üzrədir. Bu proqramın da 2007-cı ildə TRT ekranlarında yer alması planlaşdırılır.

## Azərbaycan türklərinin Türkiyəyə İstiqlal Savaşı öncəsi dəstəkləri
## (Mondros atəşkəs müqaviləsindən əvvəl)

Birinci Dünya Savaşından İstiqlal Savaşına, bir çox cəbhədə savaşlara qatılmış, təqaüddə olan Kumray Albay Rəhmi Apak, “Yetmiş yaşlı zabitin xatirələri” adlı kitabında, mövzumuzla əlaqəli çox diqqət çəkən bir olaya yer verir. Bu, I Dünya Savaşı zamanı, Malazgirt Ovası ətrafında baş verən bir savaşdan sonra başına gələn hadisədir.

Apakın anladığına görə, burada baş verən bir vuruşmada rus birliyi məğlub olur və geri çəkilir. Bu birliyin komandir müavinin otağına girən türk zabiti masanın üzərində Azərbaycan dilində yazılmış bir məktub tapır. Məktubda bu ifadələr də yazılırdı:

“Ey Müsəlman və türk qardaşlar,
Rusun qüvvəti tükənmişdir. Bilhassa
Girmaniya (Almaniya) cəbhəsində çox
Qırğına uğramışdır. Fəqət rusun bir taltıkası vardır.
Her yerdə qüvvətlərini zəif buraxır,
bir yerə toplar və oradan saldırır.
Əgər siz də bütün cəbhədə birdən hücuma
keçərsinizsə, onu yenərsiniz. İnşallah Qarsda görüşürüz...”[7]

Apakın sonradan öyrəndiyinə görə, bu məktubu yazan zabit rus ordusu sıralarında xidmət edən Azərbaycan türklərindən biri olan Süleymanovdur. Apakın yalnızca soyadını andığı Süleymanov bu davranışıyla türk ordusuna önəmli bir yardım etmiş, ayrıca tabeçiliyndəki əsgərləri başqa yerə yönləndirərək türk ordusunu ciddi bir təhlükədən uzaqlaşdırmışdır. Apak “igid” olaraq təqdim etdiyi bu Azərbaycanlı zabitin, öz həyatını riskə ataraq göstərdiyi şücaəti “unudulmaz olaraq” qeyd edir və ilgili bölümün başlığını “Türkün böyük övladı Süleymanov” qoyur[8].

Yenə Azərbaycanın ölməz simalarından Cəfər Cabbarlı “Ədirnə fəthi” əsərində, Əhmən Cavad az qala hər kəsin əzbər bildiyi “Çırpınırdı Qara dəniz” adlı şeirində, Balkan savaşlarından Azərbaycan türklərinin Türkiyə türklərinə baxışını

---

[7] Rahmi Apak, **Yetmişlik bir Subayın Hatıraları**, Ankara, “Türk Tarih Kurumu” yayınları, 1988, s. 113-114.

[8] Apakın nəql etdiyinə görə, Süleymanov bu olaydan bir sürə sonra təqaüdə çıxarılır, bolşeviklər hakimiyyətə gələrkən isə edam edilir. Apak Süleymaovun davranışından o qədər təsirilənmişdir ki, özünü bu sözləri sərf etməkdən saxlaya bilmir. “Biz Turana getmək üçün İstanbuldan yola çıxmışdıq, fəqət Turan, Süleymanovun şəxsində Malazgirtə gəlmişdi.” Apak, **Yetmişlik bir Subayın...s.114.**

çox anlamlı şəkildə ortaya çıxardılar. Digər tərəfdən həm Balkan, həm də birinci Dünya Savaşlarında və özəlliklə Çanaqqala cəbhəsində xeyli Azərbaycan türkünün bilavasitə Osmanlı ordusu sıralarında savaşdıqları da bilinməkdədir.

Bundan başqa, Birinci Dünya Savaşının o sıxıntılı günlərində Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi altında fəaliyyət göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Anadoluya çox önəmli yardımlar təşkil etdiyi bilinməkdədir. Bu cəhətdən eyni zamanda, Anadoluda özəlliklə erməni zülmləri nəticəsində yetim qalan uşaqları, qadınları, yaşlıları qorumaq üçün də fəaliyyət göstərirdi və bu amacla "Qardaş köməyi" adlı olduqca geniş və yaxşı təşkil edilmiş bir yardım səfərbərliyi gerçəkləşdirmişdi (həyata keçirmişdi)[9].

Digər tərəfdən, yuxarıda qısaca vurğulandığı kimi, Azərbaycan türkləri, Bakıda qurulan rus-bolşevik və ermənilərin hakim olduğu Şaumyan tabeçiliyndəki güclər tərəfindən kütləvi qətliamlara məruz qalmağa başlayınca, bir çox cəbhədə savaşmaq məcburiyyətində qalmasına baxmayaraq, Osmanlı rəhbərliyi Azərbaycana yardım etməyi qərarını verəcək və əsgər göndərəcəkdir. Cəbhələrdən əsgər sayının azaldılması və Anadolunu bir çox yerindən könüllü əsgər toplmasıyla təşkil edilən bu orduya, Qafqaz İslam Ordusu adı veriləcəkdir. Əsərin mövzusu İstiklal Savaşı dönəmindəki ilişkilər olduğundan bu həyatı əhəmiyyətli olayın üzərində durmayacağıq. Ancaq Azərbaycan tarixində oynadığı rolun yanında, o dönəmi araşdıran bəzi tarixçilərin fikrincə, Qafqaz Hərəkatı üçün əsgər göndərilməsinin Türkiyənin digər cəbhələrdəki hərbi durumunun zəiflətdiyi, müxtəlif cəbhələrdə məruz qalınan məğlubiyyətlərin əsas səbəblərindən biri olduğu iddiası göz önünə alınarsa,[10] göstərilən fədakarlığın önəmi daha da anlaşılacaqdır.

## Mondrosdan sonra
## Azərbaycan-Türkiyə əlaqələri
## 1)Azərbaycan Xalq Cumruriyyəti dövrü

30 oktyabr 1918-ci il tarixli Mondros atəşkəs müqaviləsindən sonra, Türkiyə və Azərbaycan ilginc bir tablo ilə qarşı-qarşıya qaldıqları görülməkdədir. Türkiyədə, özəlliklə Mustafa Kamal Paşanın Samsuna ayaq basması və ondan sonra başlatdığı İstiqlal Savaşıyla birlikdə, Osmanlı Türkiyəsinin dörd bir yanını işğal etməyə başlayan ingilis, fransız və itlayan işğalçı qüvvələri ilə mübarizə üçün hərəkətə keçilirkən Azərbaycanda 28 May 1918-ci ildə elan edilən Azərbaycan Xalq Cumhuriyyəti Mondrosdan sonrakı dönəmdə varlığını davam etdirə bilmək

9 "Qardaş köməyi" fəaliyyəti və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" haqqında geniş bir araşdırma üçün bax., Betül slan, 1**. Dünya Savaşı Esnasında Azərbaycan Türklərinin Anadolu Türklərinə "Kardeş kömeği" (Yardımı)" ve Balü Müslüman Cemiyyeti Hayriyyesi**, Ankara, "Atatürk Kültür Merkezi Başkanlığı" yayınları, 2000.

10 Məsələn: SSCB Bilimlər Akademisi, **Ekim Devrimi Sonrası Türkiye Tarihi,** çev.A.Hasanoğlu, İstanbul, "Bilim" yayınları, s. 24-25.

üçün və yeni bir rus hegemonluğundan qurtula bilmək üçün eyni güclərlə dialoq qurmaq durumu ilə qarşı-qarşıya qalmışdı. Bu anlamda Ankara hökümәti bolşevik Rusiyasına yaxınlaşma siyasətini yürütmə durumunda qaldığı zaman [11] Azərbaycandakı milli hökümət isə qaliblərə müstəqilliyinə qəbul etdirə bilmək, onlarla dialoq qurmaq və dəstək ala bilmək üçün ağır bir diplomatik fəaliyyət göstərmək məcburiyyətində idi.[12]

Buna baxmayaraq, Azərbaycan Xalq Cumhuriyyəti hökuməti Anadoluda başlayan Milli Mücadilə (mübarizə) hərəkatının məqsədini yaxşı anlamış, vəziyyətə biganə qalmayaraq əlindəki imkanlarla yardım göstərmək üçün hərəkətə keçmişdir. Mustafa Kamal Paşanın Türkiyə Böyük Millət Məclisinin açılışının ertəsi günü 24 aprel 1920-ci ildə keçirilən gizli toplantıda söylədiyi bu sözlər açıq olaraq bunu göstərməkdədir:

> "Azərbaycan, hamınıza məlum olduğu kimi
> İstiqlaliyyətini təsdiq etdirmiş bir vəziyyətdədir.
> Onların dahi bizə qarşı səmimiyyətləri vardır.
> Fəqət öz zatən istihsali istiqlaliyyət
> etmiş olduğu üçün bizimlə olan münasibəti bittabi
> rəsmi bir şəkildə deyildir. Fəqət bizim
> məqsədimiz üçün bütün
> mənası çalışa biləcək ünsurlara malikdir."[13]

Göründüyü kmi, Atatürkün bu sözləri, Azərbaycan türklərinin, özlərinin çox çətin durumda olmalarına baxmayaraq, Anadolu türklərinin var olmaq uğrunda apardıqları mübarizəyə göstərdikləri yaxınlığı birinci ağızdan duyurmaqdadır.

Milli mübarizənin başlamasıyla, Azərbaycan türkləri Anadoluya mənəvi dəstəyi ilə birlikdə müxtəlif maddi dəstəklər də göstərmişdir. Bu maddi dəstək mövzusu çox önəmlidir. Çünki, Azərbaycan Xalq Cumhuriyyəti o tarixlərdə hələ bir yaşında dövlət idi. Daha öz varlığını qəbul etdirmək, yaşamaq uğrunda mübarizə aparmaqdaydı. Bu vəziyyətə və yardımına ehtiyac duyduğu güclərin Anadolu Milli Mübarizəsinin düşmənləri olduğuna baxmayaraq, əlindən gələn

---

[11] Bu mövzuda ətraflı bir çalışma üçün bax., Mehmet Perinçek, **Atatürkün Sovyetlərlə Görüşmələri,** İstanbul, "Kaynak" yayınları, 2005.

[12] Bu mövzuda ətraflı bir çalışma üçün bax., Musa Qasımlı, Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, III cild, Bakı, "Adıloğlu" nəşriyyatı, 2004. (əsərin III cildini tamamən bu mövzudakı sənədlərə ayrılmışdır.) Ayrıca bax., Cemil Hasanlı, **Azerbaycan Tarihi 1918-1920 (Türkiyenin Yardımından Rusiyanın İşğaline Kadar),** çev. Aslan Erturun, Ankara, "Azerbaycan Kültür Derneği" yayınları, 1198, Necə ki, Azərbaycan xalq Cumhuriyyətinin müstəqilliyi 1920-ci ilin yanvar ayında Versal Ali Şurası tərəfindən tanınaraq I Dünya savaşı qalibləri tərəfindən də qəbul edilmişdir.

[13] **TBMM Gizli Zabıtları** (qeydləri), 2. İnikat, 4. Celse, 23 Nisan 1336 (1920)

yardımı göstərməyə çalışmışdır. Bu, çeşidli belgelerdən açıq olaraq, anlaşıldığı kimi TRT üçün hazırlamaqda olduğumuz "Qurtuluş savaşında azərbaycanlılar" adlı sənədli film üçün fikirlərini öyrənmək istədiyimiz bir çox mütəxəssislər tərəfindən də qeyd edilmişdir.

Məsələn, prof. Dr. Cəmaləddin Taşkırana görə, Azərbaycan höküməti müxtəlif araçılar vasitəsilə, Amasyada olan Cəmil Cahit (Toydəmir) bəylə yazışır və Kazım Karabəkir kanalıyla Heyəti Təmsiliyəyə çatdırılması üçün şifrəli teleqraflar göndərirdi. Və bu teleqraflarda Azərbaycan Xalq Cumhuriyyəti höküməti Anadoludakı Milli Mübarizə hər cür yardıma hazır olduğunu bildirirdi.[14] Yenə o dönəmdə, Azərbaycan Xalq Cumhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli, 1, 5 milyon fransız frankı miqdarında pul yardımını göstərmək neft və çek qəbzlərini imzalamaqla Milli Mübarizə rəhbərlərinə təhvil vermişdir[15].

Bundan başqa Yusifbəylini Türkiyədən Rauf (Orbay) bəyin Azərbaycana gəlməsinin uyğun olacağını söylədiyini, silah və cəbhəxana, nə miqdarda lazımsa verəcəklərinə, amma necə, hansı yoldan göndərəcəklərini bilmədiklərini ifadə etdiyini, Kazım Karabəkir Paşa "İstiklal hərbimiz" adlı əsərində müxtəlif yazışma bəlgələri (sənədləri) ilə birlikdə ortaya qoyur.[16]

Digər tərəfdən 1,5 milyon franklık pulun göndərilişi Mustafa Kamal Paşanın 18 may 1921 və 16 noyabr 1921-ci il tarixlərində, TBMM-nin Bakı təmsilçisi Mehmud Şövkət (Esendal) bəyə yazdığı məktublarında da təsdiq edilməkdədir. Bu məktubların ilkində Mustafa Kamal, Memduh Şövkət bəydən, "İnqilabdan əvvəl, hökümət (yəni Azərbaycan Xalq Cumhuriyyəti höküməti A.A.), Mir Yusif Vəzirov vasitəsiylə, müxtəlif çeklərlə bir milyon fank həvalə etmişdi. Bundan başqa da bir miqdar pul göndərmişdi"- deyərək, sözü gedən məbləğin bir qisminin əllərinə çatdığını, ancaq bir milyon frank (qızıl) dəyərində yardımın, Azərbaycan Xalq Cumhuriyyəti yıxıldığından, göndərilmədiyini bildirir, Memduh Şövkət bəydən bu pulun "Azərbaycan hökümәti xəzinəsi" tərəfindən təmin edilməsi üçün çalışmasını istəyirdi[17].

Mustafa Kamal Paşa tərəfindən qələmə alınan ikinci məktubdan da yeni Azərbaycan hökümətinin Mustafa Kamal Paşanın bu istəyini müsbət qarşıladığı anlaşılır. Çünki, Mustafa Kamal Paşa təxminən beş ay sonra yazdığı bu məktubda,

---

[14] Kırıkale Universiteti müəllimi. Prof. Dr. Cəmaləddin Taşkıran ilə hazırlanan reportajdan, Kırıkale. 2006.

[15] Kazım Karabəkir Paşaya istinadən, Taşkıran eyni reportajdan. Ayrıca, Ərciyez Universiteti müəllimi Prof**. Dr. Mustafa Keskin** ilə hazırlanan reportaj. Kayseri, 2005. Svetyoxovski, bu yardımın 1919-cu il dekabr ayında qeyd edildiyni qeyd edir. Tadeusz Svietochovski, **Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azərbaycanı (1905-1920)** çev. Nuray Mert, istanbul, "Bağlam" yayınları.

[16] Səlcuq Universiteti müəllimi prof. **Dr. Nuri Köstüklü** ilə hazırlanan reportajdan, Konya, 2005

[17] "Atatürkün Türkiye Böyük Millet Meclisi hükümeti Azerbaycan Temsilcisi Memduh Şevket beye mektubu -18 Mayıs 1337 (1921)", Utkan Kocatürk, Atatürk Çizgisində Geşmiştən Geleceğde, **Atatürk və yakın Tahirimize İlişkin Görüşmeler, Araştırmalar, Belgeler, Ankara, "Atatürk Araştırma Merkezi"** yayınları, 2005 içinde, s. 324.

“Azərbaycan hökümətinin dəstəyi ilə bağlı hərəkəti-insaniyəsinə təşəkkür edirəm. Bu təşəkkürümün, sureti münasebede çatdırılmasını rica edirəm”, deyərək, Azərbaycan Xalq Cumhuriyyəti Höküməti zamanında vəd edimliş 1 milyon qızıl dəyərindəki yardımın həyata keçirilməsinə görə məmnunluğunu ifadə etməkdədir.[18]

Bu mövzuyla ilgili vəfatından bir az öncə görüşdüyümüz dr. Məhəmməd Kəngərli də 1, 5 milyon franklık bu yardımın dışında, daha çox yüksək miqdarda başqa bir pul yardımının da Naki Keykurun (Şeyxzamanlı) tərəfindən Türkiyəyə gətirilərək hökümətə təslim edildiyini ifadə edir. Kəngərli Şeyxzamanlı ilə görüşlərində yardımın miqdarını öyrənməyə çalışdığını ancaq onun “doktor”, bu qardaş yardımıdır...Bunu yapan da mən yardım yaptım deməz”- deyərək söhbətdən yayındığını bildirir.[19]

Azərbaycan Xalq Cumhuriyyəti 27 aprel 1920-ci il tarixində 11 Qızıl ordunun Azərbaycanı işğal etməsilə yıxılır və yerini Nəriman Nərimanovun rəhbərlik etdiyi Azərbaycan Şura (Soveti) Hökuməti (AHŞ) alır. Bu dönəm Milli Mübarizə rəhbərliyi ilə Azərbaycan arasında hər sahədə daha çox sıx ilişkilərin meydana gəldiyi bir dönəm olur.

Bu arada, yeri gəlmişkən, müstəqil Azərbaycan dövlətinin süqutundan TBMM hökumətinin rolu olduğu barədə iddialara münasibət bidirməyin gərəkdiyini düşünürəm. Bu iddiada bulunalara görə, TBMM höküməti bolşeviklərdən kömək ala bilmək üçün Azərbaycan sovet hökümətinin qurulmasını dəstəkləmiş, ən azından Azərbaycan Xalq Cumhuriyyəti hökumətinə dəstək olmamışdır.

Anadoludakı Milli Mübarizə idarəçilərinin, başlanğıcdan etibarən Rusiyada qurulan bolşevik rəhbərliyi ilə əlaqləri gücləndirməyə meyilli olduğu bildirilir.[20]

Çünki, ölkəsində işğalçı imperialist güclərlə mübarizə aparan Anadolu türklərinin bunlara qarşı duruş gətirə bilmək üçün güclü bir dövlətin dəstəyinə ehtiyacı vardı. Bu dəstək üçün ən uyğun ölkə isə, eyni imperialist güclərə qarşı olduğunu söyləyən bolşevik Rusiyası ola bilərdi. Bu nöqtədə Sovet Rusiyası ilə Milli Mübarizə rəhbərliyi arasında vasitəçilik edə biləck ən uyğun mərkəz Bakı

---

[18]Atatürkün Türkiye Büyük Millet Meclisi Hükümeti Azerbaycan Temsilcisi Memduh Şevket beye Mektubu -16 Teşrinisani 1337 (16 Kasım 1921)” Kocatürk, **Atatürk Çizgisinde Geçmişten Geleceğe,** içerisinde, s. 239.

[19] Dr. Məhəmməd Kəngərli ilə hazırlanan resportajdan, Ankara, 2006. Şeyxzamanlının xatirələri üçün, bax., Naki Keykurun, **Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920),** İstanbul, “İlke” yayınları, 1964.

[20] Məslən, Mustafa Kamal Məclisin bir gözlü yığıncağında, bolşeviklərlə təmasın hələ Ərzurum Konqresi sırasında başlandığını ifadə etməkdədir. Bax., TBMM Gizli Zabıtları (qeydləri), 26 İnikat, 3. Celse, 3 Temmuz 1336 (1920). Bu mövzuda sovet arxivlərində bir araşdırma aparan Mehmet Perinçek isə Mustafa Kamal Paşa ilə sovet təmsilçiləri arasındakı görüşlərin Havzada (Samsunun bir qəsəbəsi) 1919-cu ilin iyun ayında başladığını irəli sürməkdədir. Bax., Perinçək, **Atatürkün Sovyetlerle Görüşmeleri, s. 28-38**

idi.[21] Bunu üçün Anadolu Milli Hökümәti ilә Azәrbaycanın sovetlәşdirilmәsindәn öncә başlamışdı.[22] Ancaq bunlar qeyri-rәsmi halda hәyata keçirilirdi. Mәqsәd azәrbaycanlı bolşeviklәrin kanalıyla böyük ehtiyac duyulan yardımını tәmin edә bilmәk idi.

Ancaq yeri gәlmişkәn, bu dönәmdә Heyәti Temsiliyye[23] ilә Azәrbaycan bolşeviklәri arasındakı bu ilişkilәrdә Türkiyәnin amacının Azәrbaycanın müstәqilliyni yox etmәk vә buranı Sovet Rusiyasına vermәk olmadığını qeyd etmәk lazımdır.

Gәrçi Doğu (Şәrq) cәbhәsi komandanı Kazım Karabәkir Paşa Mustafa Kamala yazdığı bir mәktubla Gürcüstan vә Azәrbaycanda bolşevizmin yayğınlaşdırılmasını tәklif etmişdir.[24] O dönmәdә Azәrbaycana yönәlәn XI Qızıl Orduya qarşı müqavimәti әngәllәyә bilmәk üçün bu ordunun Azәrbaycanı işğal etmәyә deyil, Anadoluya yardıma getdiyi fikri tәlqin olunurdu. Bu fikir әsarәt sonrası Azәrbaycanda yaşamağa başlayan bәzi Türkiyәli zabitlәrlә yanaşı, bir sıra şәxslәr tәrәfindәn tәbliğat aparıldığı da bәllidir.[25] Yenә Mustafa Kamal Paşa, TBMM-dә anlaşdığı vә Türkiyәnin azәrbaycanlıların bolşeviklәrlә savaşmasını istәdiyi fikrinin bir "ingilis oyunu" olaraq bildirmәkdә, mәqsәdin Türkiyәni Doğudan (Şәrqdәn) da mühasiryә almaq olduğunu ifadә etmәkdir.[26]

Fәqәt bütün bunların TBMM hökümәtinin Azәrbaycanda müstәqil bir hökumәt olmasına qarşı olduğunu vә ölkәnin rus işağalına düşmәsini dәstәklәdiyi

---

[21] Hüseyn Adıgüzel, **Atatürk-Nәrimanov vә Kurtuluş Savaşımız**, 2. Baskı, İstanbul, "İleri" yayınları, 2006, s. 84-90. Ersan Baş, "Milli Mücadele Dönemindeki Doğu Cephesi Muharbelerinin Türk-Kafkas İlişkileri İçerisinde İncelenmesi ve İstiklal Savaşındakı yeri vә önemi", Sekkizinci Askeri Tarih Semineri Bildirimleri, Cilt 2, (Sunulmayan bildiriler), Ankara, "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı" yayınları içinde s. 355-356.

[22] Daha geniş bilgi üçün bax. Halil Paşa, İttihat ve Terakkiden Cumhuriyete-Bitmeyen Savaş, haz. Taylan Sorgun. 2 baskı, İstanbul, "Kum Saati" yayınları, 2003, s. 218-224; Swietochowski Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azәrbaycanı, s. 224-243.

[23] Türkiyә Böyük Millәt Mәclisi 23 aprel 1920-ci ildә açıldığı üçün, bu tarixә qәdәr olan daxili vә xarici әlaqәlәr 04-11 sentyabr 1919-cu il tarixindә toplanan Sivas Konqresindә tәşkil edilәn Mustafa Kamal başqanlığındakı "Heyet-i Temsiliye" kanalıyla qüvvәyә minmişdir.

[24] "Kazım Karabekirin Genelkurmay Başkanlığının Evliye-i Selasenin Geri Alınmasıyla ilgili Harp Raporu, Askeri Tarih Belgeleri Dergisi, yanvar 1999, sayı 107, s. 47-50-dәn nәql edәn, Ersan Baş, Sekizinci Askeri Tarih Semineri Bildirileri, s. 356.

[25] Mәsәlәn, Mәmmәd Әmin Rәsulzadә 27 aprel 1920-ci il tarixindә sәn dәfә toplanan Milli Mәclisdә etdiyi çıxışında "Duyduğunuz bu tәbliğat, düşmәn tәbliğatıdır. Bizi aldadırlar. Yalandır, gәlәn rus ordusudur. Onun istәdiyi 1914-cü ilin sәrhәdlәrini almaqdır. Anadolunun imdadına getmәk bәhanәsiylә yurdumuza girәn işğal ordusu buradan bir daha çıxmaq istәmәyәcәkdir"-demişdi. **Hasanlı, Azerbaycan Tarihi,** s. 408. Hәtta bu ordunun başına Әnvәr Paşanın әmisi Xәlil Paşanın keçәcәyi belә söylәnmişdir. Swietochowski, Müslüman Cemaatten Ulusal Kimliğe, s. 241.

[26] Mustafa Kamalın 5 fevral 1920 tarixindә komandanlıqlara göndәrdiyi vә fevral 1920-ci il tarixindәki genel siyasi durumu anlatdığı şifreli direktiv, **Atatürkün Tamim, Telgraf ve Beyannameleri (1917-1938), cilt 4, s. 182.**

anlamına gəlmədiyini də söyləmək gərəkdir. Öncəlliklə bunu bildirmək lazımdır ki, Azərbaycan Xalq Cumhuriyyəti yıxıldığı 27 aprel 1920-ci il tarixdə Anadoludakı Milli Mübarizənin mərkəzi olacaq Türkiyə Böyük Millət Məclisi cəmi 4 gün idi ki, fəaliyyətə keçmişdi. ( 23 aprel 1920.) Ankara hökumətinin hələ heç bir əsgəri, iqtisadi gücü yox idi. Siyasi cəhətdən də hələ öz varlığını tam möhkəmləndirə bilməmiş bir durumdaydı. Doğrudan da belə bir zamanda Azərbaycana bir dəstəyin mümkünsüzlüyünü söyləməyə gərək olmadığını sanıram. Buna rəğmən, Ankara hökuməti hər zaman Azərbaycanın müstəqil bir dövlət kimi var olmasını istəmiş və bunun reallaşmasına çalışmışdır.

Bunu Azərbaycan Xalq Cumhuriyyəti varlığının Paris Sülh Konfransında Birinci Dünya savaşı qalibləri tərəfindən də rəsmən qəbul edilməsini Türkiyədə oyatdığı təsirdə açıq şəkildə görürük. Bu qərar ölkənin hər yerində böyük bir sevinc meydana gətirmiş və o günün qəzetləri tərəfindan coşqu dolu ifadələrlə ictimaiyyətə çatdırılmışdır. Məsələn, Mustafa Kamal Paşanın ən yaxın arkadaşlarından biri olan Yunus Nadinin sahibi olduğu "Yeni Gün" qəzeti bu xəbəri "Azərbaycanın istiqlalı Sülh Konfransı tərəfindan təsdiq edilmişdir. Türklük aləmi yeni, müstəqil bir siyasi üzv qazanmışdır" başlığıyla verirkən[27], Yunus Nadi də yazdığı baş yazıda Azərbaycanın istiqlalını "fövqaladə önəmli bir olay" olaraq dəyərləndirəcəkdir.[28] İstanbulda yayınlanan "İfham" qəzeti də duyduğu mutluluğu, "Qardaş dövlət Azərbaycan... Türk aləmi yeni və önəmli bir siyasi üzv qazandı"[29] sözləriylə dilə gətirəcəkdir. Bunun sonu olaraq butun Aerbaycan hokumater

O günün qəzetlərinə baxdıqda Azərbaycan Xalq Cumhuriyyətinin müstəqilliyinin Avropa dövlətləri tərəfindən tanınması münasibəti ilə İstanbul başda olmaqla, Anadolunun hər yerində şənliklər düzənləndiyi, bayram coşqusu yaşandığı haqda xəbərlərlə dolu olduğu görünür. Məsələn, İstanbulun ən güclü qəzetlərindən biri olan "İkdam" 31 yanvar, 1920-ci il tarixli sayında İstanbul Universitetinin tələbələrinin keçirdiyi şənlikləri "Qardaş Azərbaycanın istiqlalını kutlama yolunda Darülfünunda təzahürat" (nümayiş) başlığıyla çap etmişdi.[30] Daha sonra o dövrün ən böyük məhəlli qəzetlərindən biri olan "İzmirə Doğru" qəzetində "Qardaş Azərbaycanın istiqlalı, məmləkətimizin hər tərəfində nəşələr, səadətlər yaratdı" başlığıyla çap edilən xəbərdə Türkiyənin bir çox şəhərlərində edilən şənliklərə yer verilidi.[31] Eyni zamanda, milli mücadilənin ən önəmli strateji, təchizat mərkəzlərindən biri olan Kastamonuda yayınlanan və başlanğıcından etibarən Mustafa Kamal Paşanın təsir dairəsində olan "Açıksöz" qəzeti də

---

[27] **"Yeni Gün" qəzeti,** 18 yanvar 1920. Bu arada, 24 oktyabr 1919 tarixli "İkdam" qəzetində çox maraqlı bir ifadənin yer tutduğu görünməkdədir. Burada yenicə müstəqilliyini qazanmış Azərbaycanın siyasi durumu, iqtisadi potensialı ilə bağlı bir xəbərə yer verilməkdə və Azərbaycan "Türk İsveçrəsi" olaraq tanıdılmaqdadır.

[28] Yunus Nadi, "Azərbaycanın İstiqlali", **"Yeni Gün» qəzeti,** 21 yanvar 1920, s. 1.

[29] **"İfham" qəzeti,** 21 yanvar 1920.

[30] **"İkdam" qəzeti**, 31 yanvar 1920.

[31] “**İzmire Doğru" qəzeti,** 6 fevral 1920.

Kastamonu gənclərinin bir teleqrafla Azərbaycanın müstəqilliyini təbrik və bayram etdiklərini yazırdı.[32]

Azərbaycan Xalq Cumhuriyyətinin Paris Sülh Konfransında tanınmasıyla bağlı maraqlı dəyərləndirmələrdən bir başqası da milli mübarizə vaxtı İstanbulda nəşr olunan, TBMM-nin (Türkiyə Böyük Millət Məclisi) açılışından sonra Ankara hökumətinin ən önəmli dəstək verənlərindən birisi olan "Vakit" qəzeti tərəfindən edilmişdir. Qəzetin 31 yanvar 1920-ci il tarixli sayında yer alan bir yorumda (şarhda) Azərbaycanın tanınmasının Türk dünyası üçün böyük bir başarı olduğu qeyd edilirdi. Bu yorumun başlığı 1918-ci ildə Azərbaycanı işğaldan qurtararkən şəhid olan Osmanlı Qafqaz İslam Ordusu əsgərlərinə həsr edilirdi:

"Azərbaycanın sancağını taziz*... Şahid Osmanlı Türkləri,
Doğuda yaratdıqları istiqlalın doğusuyla rahat ola bilirlər."[33]

Azərbaycan Xalq Cumhuriyyətinin müstəqilliyinin Birinci Dünya savaşının qalib dövlətləri tərəfindən tanınmasının Türkiyədə oyatdığı böyük sevinc və şadyanalıqla bağlı daha da çox örnək verə bilər. Ancaq burada yalnız TBMM hökumətinin Azərbaycan Xalq Cumhuriyyətinin varlığının davam etməsina qarşı olduğu, onun yıxılması üçün bolşeviklərlə işbirliyində bulunması iddialarına qısa bir cavab olaraq özəlliklə Mustafa Kamal Paşaya yaxın olan bəzi yayın orqanlarında yer tutan xəbər və yorumlardan bir qismini nəzərdən keçirməyə çalışdım. Bu qısa nümunələrdan da asanlıqla anlaşıldığı kimi, Azərbaycan Xalq Cumhuriyyətinin yıxılmasından az önca meydana gələn bu gəlişməyə bu qədər böyük ilgi göstərən, könüldən dəstək verən və bunu açıqcasına ifadə etməkdan çəkinməyən Milli Mübariza rəhbərliyinin onun varlığının yox edilməsinə dəstək verdiyini söyləmənin gərçək bir yanaşma olmadığı aydın məsələdir. Yuxarıda qeyd etdiyimiz kimi, XI Qızıl ordu Bakını işğal etməzdən təxminən bir ay öncə Türkiyənin dörd bir yanı olduğu kimi, İstanbul da 21 Mart 1920-ci ildə Antanta dövlətləri tərəfindən işğal edilmiş, Məclisi Məbusanın (Osmanlı Dövlətinin Məclisi) fəaliyyətinə xitam verilmişdi. Digər tərəfdən, Azərbaycan Xalq Cumhuriyyətinin yıxıldığı vaxtı TBMM-in elan edilməsindən cəmi üç gün keçirdi. Belə bir mənzərə içərisində hələ Türkiyənin özündə belə bir siyasi qüvvə təşəkkül etməmişkən, Azərbaycan üzərinə belə bir bazarlığın edilmiş olması iddiasını irəli sürmək də həqiqətə uyğun görünmür.

Bununla yanaşı, TBMM qurulduqdan sonra belə nizami bir ordunun təşəkkülü üçün uzun zaman lazım olmuşdur. Məlum olduğu kimi, 1921-ci ilin əvvəllərinə qədər işğalçılara qarşı direniş böyük ölçüdə, "Qüvveyi Milliye" deyilən məhəlli milis qüvvətləri tərəfindən yürüdülmüş, ancaq, 1921-ci ilin əvvəllərindən

---

[32] **"Açıksöz" qəzeti,** 8 fevral 1920

* Sevgiylə xatırlama

[33] **"Vakit" qəzeti,** 31 yanvar 1920.

etibarən güclü və düzənli bir orduya keçmə ərəfəsinə gələ bilmişdir. Bir sözlə, Azərbaycan Xalq Cumhuriyyəti yıxıldıqdan sonra Qızıl orduya qarşı meydana çıxan bəzi müqavimət hərəkatlarına hərbi bir dəstək verilməsi də mümkün deyildi.

Bütün bunlara baxmayaraq, Türkiyə Azərbaycanın müstəqil bir dövlət olmasını hər zaman dəstəkləmiş və qayğısını çəkmişdir.

Belə ki, Azərbaycanda şura hökuməti qurulduqdan sonra belə, o vaxt TBMM-in gizli müşavirələrindəki müzakirələrdə bölgənin rus işğalına uğramasına qarşı tədbir görülməsi mövzusu ətraflı müzakirə edilmişdir. Buna görə, yəni Azərbaycanın yenidən rus hakimiyyətinin əlinə keçməsinin qarşısını ala bilmək üçün TBMM başqanı Mustafa Kamal Paşanın aidiyyatı orqanlara müxtəlif təlimatlar verdiyi də o dönəmin sənədlərindən bəlli olur.

Buna bir örnək olaraq, Mustafa Kamal Paşanın türk – sovet ilişkilərində izlənməsi gərəkən təməl siyasət mövzusunda Şərq Orduları Komandanlığına göndərdiyi 1 dekabr 1920-ci il tarixli şifrə təlimatın Azərbaycanla ilgili maddəsini diqqətinizə çatdırmaq istəyirəm:

"Maddə 13 - Azərbaycanın tamamən və həqiqətən müstəqil bir dövlət olmasına tərəfdarıq. Və bunun təmini üçün Rusları gücləndirməmək və sayıq salmamaq şərtiylə təşəbbüsatı lazimədə bulunulacaqdır. Bu cəhətdən, məmləkətin* neft və s. kimi öz iqtisadi qaynaqlarına sahib olması üçün yenə eyni şərtlə çalışılacaqdır. Rusların Azərbaycana yapacaqları müamilənin bütün İslam aləminin bolşevikleri sınamaq üçün bir miyard olacağının Ruslara anladılmasına çalışılacaqdır.

Qafqaz məsələsinin hüdud, əlaqə saxlamaq yolları (vesaiti nakliye) və s. kimi nəzər nöqtəsindən həllində daima Azərbaycanın və Şimali Qafqaz mənfəətlərinin bilhassa (özəlliklə) nəzəri dikkətə alınmasına xüsusi önəm veriləcəyi kimi, 10.8.1920-ci ildə ruslar və ermənilər arasında imzalanan atəşkəs anlaşmasından Azərbaycana zərər verən maddələrin çıxarılmasına çalışılacaq və hər millətin müqəddəratına hakim olması düsturuna binaən, Qarabağ və s. kimi türk əksəriyyəti ilə məskun yerlərin Azərbaycana bağlı bulunması təmin ediləcəkdir."[34]

İndi Azərbaycanın müstəqilliyinin var olmasına bu qədər diqqətlə və özənlə baxan, rus-erməni anlaşmasında belə Azərbaycanın zərərinə olan maneələri diqqətlə təqib edərək ortadan qaldırmağa çalışan, Azərbaycanın sadəcə siyasi deyil, iqtisadi gücünün də qayğısını çəkən TBMM hökuməti və onun başqanı Mustafa

---

[34] 1.12.1336 (1920) tarixli "Şərq Cəbhəsi Komandanlığına" başlıklı Mustafa Kamal Paşanın el yazısı ile yazılmış talimatname, **Türkiyə Cümhuriyəti Xarici İşlər Nazirliyi Arxivi (DBA),,** SSCB (1919-1931), K.ll/B.l, **Belge No. 33, Atatürkün Milli Dış Politikası - Milli Mücadele Dönemine Ait 100 Belge (1919-1923),** cilt 1, "Kültür Bakanlığı" yayınları, Ankara, 1992, s.202-206. Bu dönemle ilgili, Mustafa Kamal Paşa tərəfindən qələmə alınan və TBMM Hökuməti Xariciyə Vəkaləti tarafından Şərq Cəbhəsi Komutanlığına göndərilən bir yazıda, ingilislər tərəfindən, "Azərbaycanın Türkiyəyə veriləcəyi" şəklində bir təbliğatın aparıldığı bildirilməkdədir. Xariciye Vekaleti: (853-474), 30 Teşrinisani 1336 (30 noyabr 1920), **Atatürkün Milli Dış Politikası** içində s.188-189.

Kamal Paşanın Azərbaycanı ruslara təslim etmək kimi bir anlayışının olmadığını söyləməyə gərək yoxdur, -deyə düşünürəm. Ancaq o dönəmdə Türkiyə ordularının tərxis edilmiş (buraxılmış), ölkənin böyük bir qisminin işğal altına girmiş və iqtisadi cəhətdən büyük bir çöküntü (iflas) içində olması, Anadoluda pöhrələnən milli hərakatın hələ güclənə bilməməsi kimi səbəblərdən, Azərbaycan Xalq Cumhuriyyətinə yetərincə hərbi və siyasi dəstək verə bilməmişdir. Doğrudan da, o günlərin mənzərəsinə baxıldığında aşkarcasına dəstək göstərmənin nə qədər çətin və imkansız bir durumda olduğu açıq görünür.

### 2) *Azərbaycan Şura (Sovet) hökuməti dövrü*

Bu dövr 27 aprel 1920-ci il tarixində, Türkiyə Böyük Millət Məclisinin açılışından dörd gün keçmiş Azərbaycan Xalq Cumhuriyyətinin süqutundan sonra qurulan müstəqil Azərbaycan Sovet Respublikası ilə ilişkiləri əhatə etməkdədir.

Bildiyimiz kimi, bolşevik işğalının ilk illərində hər millətin öz müqəddəratını təyin edəcəyinə dair Lenin və Stalin tərəfindən bəyan edilən məşhur bəyannaməyə inanan çoxlu milli ziyalı həm Orta Asiyada, həm də Azərbaycanda bolşevikləri dəstəkləmiş və sosialist yönlü müstəqil siyasi idarəçiliklər qurmuşdular. Elə məhz Anadoluda milli mübarizənin başladığı və təşkilatlandığı dönəmdə, 1919-cu ilin mayından sonra Azərbaycanda da belə bir siyasi proses gedirdi.

Azərbaycanın Sovet İttifaqına girmədiyi və hələ ki ancaq siyasi rejimini dəyişdirməsinə rəğmən, müstəqil bir dövlət olaraq varlığını davam etdirdiyi bu dönəmdə, Türkiyə – Azərbaycan ilişkilərini üç ana başlıqla araşdırmaq mümkündür: Siyasi, İstiqdai və hərbi.

### 1. Siyasi əlaqələr

Azərbaycanda Nəriman Nərimanovun rəhbərliyi ilə yeni bir idarəçiliyin hakimiyyətə gəlməsiylə birlikdə Türkiyənin daha əvvəllər olduğu kimi, əlaqələrin vasitəçilər ilə deyil, rəsmi şəkildə, dövlətlərarası ilişkilər şəklində yürüdülməsinə çalışdığı görülməkdədir. Bu məqsədlə, ilk addım olaraq Azərbaycanda TBMM-nin bir təmsilçiliyinin açılmasına qərar verilmişdi. Burada xususu da qeyd etmək lazımdır ki, Kazım Karabəkir Paşa Bakıda açılacaq diplomatik missiyanın, səfirlik səviyyəsində olmasını istəmişsə də, TBMM Höküməti Xarici İşlər Vəkaləti bunun hələlik tez olduğunu bildirərək, Türkiyənin təmsilçiliyi səfirliyə çevirmək üçün Azərbaycanın da Türkiyədə bir təmsilçilik açmasını gözləmək lazım olduğunu ifadə etmişdir. [35]

---

[35] "TBMM Hükümeti Hariciye Vekaletindən Şark Cephesi Kumandanlığına", Ankara, 22 Ağustos 1920, şifr3e tel., no 147/47, **DBA,** Sovyet Rusya-Türkiye, 30/A.2, Bilal N.Şimşir, **Atatürk ve Yabancı Devlet Başkanları,** cilt 1, Ankara, "Türk Tarih Kurumu" Yayınları, 1993 içində, s. 399-400.

Bakıda təmsilçilik açılması qərarından sonra bu vəzifə kimin təyin ediləcəyi barədə də önəmli müzakirələr aparılmışdır. Şərq Cəbhəsi Komandanlığı və Azərbaycandan rəsmi və qeyri-rəsmi kanallardan gələn fikirlər də nəzərə alınaraq, "əmələ (zəhmətkeş xalqa) və əsgərə özünü sevdirəcək biri" olan Memduh Şövket (Esendal) bəy [36] TBMM təmsilçisi olaraq Azərbaycana göndərilmişdir. Memduh Şövkət bəyin etimadnaməsi 15 avqust 1920-ci il tarixində imzalanmışdır. Bu, TBMM-nin xaricdəki ilk təmsilçiliyi olması baxımından da son dərəcə önəmlidir.

Bu arada Memduh Şövket bəyin yerinə yetirəcəyi vəzifə ilə bağlı olaraq TBMM Xariciyyə Vəkaləti (Nazirliyi) tərəfindən verilən təlimatnamədə, çox diqqət çəkən və Mustafa Kamal Paşanın idarə etdiyi TBMM-nin beynəlxalq üfüqünün dərinliyini göstərən önəmli mənalar da yer tutmaqdadır. MəsələnŞ bu təlimatnamədə, TBMM Bakı təmsilçiliyinin vəzifə sahəsi olaraq yalnız Azərbaycanla kifayət edilmkəməsi, Gürcüstan, Ermənistan, Quzey İran, hətta İranın bütünü ilə Türkistan və Rusiyanın da diqqət və vəzifə sahəsi içində yer tutması istənilmişdir. [37]

Bakıya təmsilçi təyin edilməsindən təxminən 13 ay sonra Azərbaycan Sovet Hökuməti də İbrahim Əbilovu [38] Ankaraya təmsilçi təyin etmişdir.

İbrahim Əbillov o günlərdə milli mübarizənin həyat damarlarından biri olan və "İstiqlal yolu" olaraq adlandırılan İnebolu-Kastamonu güzərgahını izləyərək Ankaraya çatmışdır. Kastamonuya gəldiyi vaxt Əbilovun şərəfinə böyük bir ziyafət təşkil edilir. Ziyafət əsasında qonağına, "xoş gəldin" –deyən "Açıksöz"

---

[36] Memduh Şövkət (Esendal), 1884-cü ildə İstanbulda dünyaya gəldi. Gənc yaşında İttihat və Tərəqqidə iştirak etdi. Mondros atəşkəsindən sonrakı dönəmdə, İttihatçılığı səbəbiylə axtarılmağa başlanıldığından İtaliyaya qaçdı. Bir il sonra, 1920 -ci ilin iyununda Ankaraya gəldi. Təxminən iki ay sonra da Bakıya TBMM təmsilçisi təyin edildi. Buradakı vəzifəsi 30 Mart 1924-cü tarixinənən davam etdi. Daha sonra Tehran və Kabildə səfir oldu. Soyadı Qanunundan sonra 'Esendal' soyadını alan və millət vəkilliyi də edən Memduh Şövkət, 1952-ci ildə Ankarada öldü. Memduh Şövkət Esenda siyasət və diplomatiya adamı olması ilə yanaşı, eyni zamanda türk ədəbiyyatının ən qabaqcıl hekayə yazarlarından biri olaraq da tanındı.

[37] "Azerbaycan Cumhuriyetile Kafkasya'nın Diğer Cumhuriyetleri Nezdinde Türkiye Büyük Millet Meclisi Hükümet Mümessili Mutemedi Olan Memduh Şevket Beyefendiye Talimat", Ankara, 15.8.36 (1920), no: 31/37, Dışişleri Bakanlığı Arşivi (DBA)- Sovyet Rusya-Türkiye, 30/A-2, Şimşir, Atatürk ve Yabancı Devlet Başkanları-I içində 397-398.

[38] İbrahim Məhərrəm oğlu Əbilov (1882-1923). 1903-cü ildə sosialist hərakatlara qoşuldu və Rusiya Sosial Demokrat fəhlə partiyasmın menşevik qrupunun üzvü oldu. Bir qədər partiya tapşırığı ilə İranda çalışdı. Fəaliyyətlərinə görə bir neçə dəfə həbs edildi, sürgünə göndərildi. 1918-ci ildə Bakıya dönərək Azərbaycan Xalq Cümhuriyyəti Milli Məclisində sosialist qrupun (Hümmət) üzvü olaraq yer aldı. Bir qədər sonra da bolşeviklərə qoşuldu və Azərbaycan Şura Hökuməti qurulduğunda Daxili İşlər Xalq Komissarı müavini oldu. I921-ci ilin sentyabrında Azərbaycanın Türkiyə səfiri təyin edildi. TBMM Hökuməti və onun başqanı Mustafa Kamal Paşa ilə çox yaxın bir dostluq quraraq, Milli Mübarizəyə yaxın dəstək verdi. Cəbhələri dolaşdı, xalqın arasında oldu. Onun Ankarada dünyaya gələn qızının adını Mustafa Kamal Paşa qoydu və "Anadolu" ismini verdi. 1923-cü ildə iştirak etdiyi İzmir İqtisad Konqresi vaxtı rahatsızlanaraq həyata gözlərini yumdu. Ayrıca bax., Anadolu Əbilova, İbrahim Əbilov - Azerbaycanskiy druq Ataturka, Bakı, "AzAtaM" yayınları, 2003

qəzetinin baş redaktoru İsmayıl Həbib (Sevük) bu tarixi cümlələrlə sözə başlamışdır:

> "Qardaş hökumətin səfiri! Sizi
> qardaş deyil, öz millətimin özümə
> göndərdiyi bir səfir olaraq salamlayıram."[39]

O dönəmdə iki ölkənin diplomatik missiyalarının "təmsilçilik" səviyyəsində fəaliyyətə başladıqları görülməkdədir. Anlaşılır ki, hər iki ölkə də ilişkilərin səfirlik səviyyəsinə çıxarıla bilməsi üçün mövcud şərtlərin bir az da yetkinləşməsi və münasib şəraitin yaranmasını gözləməkdəydi. Məsələn, Şərq Cəbhəsi Komandanı Kazım Karabəkir Paşa 21 iyul 1920-ci il tarixdə TBMM Başqanı Mustafa Kamal Paşaya göndərdiyi şifrə teleqrafda Bakıda bir "səfirliyin" olmasını tələb etmiş,[40] daha sonra, 9 dekabr 1920-ci il tarixdə, TBMM Xarici İşlər Vəkalətinin Milli Müdafiə Vəkalətinə göndərdiyi bir yazıda da yenidən buna bənzər bir tələbdə bulunaraq, Bakıdakı təmsilçiliyin böyük elçiliyə çevrilməsi istənilmişdir. Ancaq bu gerçəkləşməmiş və Memduh Şövkət bəyin təmsilçi olaraq vəzifəsinə davam etməsinə qərar verilmişdir. TBMM Mili Müdafiə Vəkaləti, Xarici İşlər Vəkalətinin yuxarıdakı tələb yazısına verdiyi cavabda bunun səbəbini, "Memduh Şövket bəyin...Bizim (Türkiyə) üçün çox mühüm olan Bakıda səfirlik işini qura biləcəyinin və ya bilməyəcəyinin təcrübə olunması" şəklində açıqlayacaqdır.[41]

Beləliklə, diplomatik təmsilçiliklərin qarşılıqlı fəaliyyətə başlaması ilə Türkiyə və Azərbaycan arasındakı siyasi ələqələr daha böyük miqyasda canlanmağa başlayacaqdır.

Azərbaycan Sovet Respublikası (ASR) ila TBMM Hökuməti arasındakı siyasi münasibətlər böyük bir kitaba mövzu olacaq qədər genişliyə və dərinliyə sahibdir. Ancaq bu kiçik əsərin sərhədləri içərisində bu mövzuya az da olsa bir qapı aça bilmək üçün Azərbaycanın Ankara təmsilçiliyi binasının açılışında Əbilovun etimadnaməsinin təqdim edildiyi zaman Əbilov və Mustafa Kamal Paşanın çıxışlarından qısa parçalar verməklə kifayətlənmək istəyirəm.

Əbilov 14 oktyabr 1921-ci il tarixində güvən məktubunu TBMM başqanı Mustafa Kamala təqdim edərkən çox səmimi bir çıxış edir. Çıxışında bu sözləri də söyləyir: *"Rusiya inqilabı kebiri sayəsində əsarətdən xilas və muradlarına nail olan Azərbaycan türkləri bir vücud kimi türk xalqının şadlığını öz şadlığı və matəmini öz matəmi bilərək son qətrə qanları qalıncaya qədər Türkiyənin və bütün Şərq məzlumlarının xilas olması üçün əziz övladlarını qurban etməkdən vaz*

---

[39] **"Açıksöz" qəzeti, 9 oktyabr 1921.**
[40] Şimşir, **Atatürk ve Yabancı Devlet Başkanları-I** içində s.399.
[41] **Bax.,** Müdafiəyi Milliyə Vəkalətinin 15.12.1920 tarix və 7/7925 saylı cavab yazısı. Şimşir, **Atatürk** ve **Yabacı Devlet Başkanları-I** içində s. 402.

*keçməzlər."*[42] Bu sözləriylə Azərbaycan türklərinin gərəkərsə canları ilə Türkiyənin qurtuluşuna dəstək verəcəklərinin qeyd edir. Bu ifadələr əslində, dönəmin Azərbaycan rəhbərliyinin və xalqının Türkiyəyə münasibətini və Azərbaycanda var olan atmosferi göstərirdi. Bu da o dönəmdə iki ölkə arasındakı ilişkilərin inkişaf etməsində və dərinləşməsində önəmli bir parametr olacaqdır.

Mustafa Kamal Paşa isə Əbilovun çıxışına eyni səmimiyyətlə cavab verir və bu tarixi sözləri söyləyir: *"Azərbaycan türklərinin dərdləri öz dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların muradlarına nail olmaları, hür və müstəqil olaraq yaşamaları bizi pek ziyadə sevindirir."*[43]

Əbilovun etimadnaməsini təqdim etməsindən bir neçə gün sonra, 18 oktyabr 1921-ci ildə Azərbaycanın Ankara təmsilçiliyi təntənə ilə açılır. Azərbaycan bayrağı isə Mustafa Kamal Paşa tərəfindən qaldırılır (göndərə çəkilir).[44] O günkü mərasimi anladan TBMM-nin rəsmi yayın orqanı "Hakimiyeti Milliye" qəzeti qaldırılan Azərbaycan bayrağı ilə ilgili olaraq, "*Ulduzların içində kəndli və fəhləyə dəlalət edən oraq* və *çəkicdən başqa, Osmanlı bayrağından bir fərqi olmayan ay-ulduzlu qardaş al bayraq yüksəlişlərdə dalğalanmağa başladı"* - deyə yazacaqdır.

Mustafa Kamal Paşa burada da tarixi bir çıxış edir. TBMM başqanı Azərbaycan bayrağının qaldırılması vəzifəsinin ona verilməsinə görə təşəkkür edərək başladığı çıxışında, *"Türkiyə və Azərbaycan arasındakı səmimi revabıtın (bağların), qardaşlığın dərəcəsini izaha lüzum görməm"* -dedikdən sonra bu gün bela Türkiyənin bölgə perspektivinə işıq verəcək bu sözləri ifada edir:

"Azərbaycan və Türkiyə arasında
mövcud qardaşlığın, səmimiyyətin
tevlit etdiyi rabıtadan başqa, Azərbaycanın
digər dostlarımızla təmas nöqtəsində
bulunması da haizi kıymet və əhəmmiyyətdir.
Coğrafi vəziyyəti göz
önünə gətirilirsə, filhakika Azərbaycanın
Asyadakı qardaş hökumət və millətlər
üçün bir təmas və telakki nöqtəsi olduğu görünür".[45]

Atatürk çıxışının sonunda, yenidən təşəkkür edər və sözlərini belə tamamlar: *"Səfir həzrətləri; Azərbaycan bayrağının Türkiyə bayrağının yanında,*

---

[42] "Hakimiyeti Milliye" qəzeti, 15 oktyabr 1921, Yıl 2, No: 217.
[43] Çıxışların tam mətni üçün, **bax., "Hakimiyeti Milliye" qəzeti,** 15 oktyabr 1921, Yıl 2, No: 217. Ayrıca **bax., DBA,** Sovyet Rusya-Türkiye, K.28, Türkiye-Azerbaycan Münasebatı, 30/A.18.
[44] "**Hakimiyeti Milliye" qəzeti,** 20 noyabr 1921, Yıl 2, NO: 253.
[45] **«Hakimiyeti Milliye" qəzeti,** 20 noyabr 1921, Yıl 2, No: 253 və **Atatürkün Söylev ve Demeçleri,** cild 2, 1. Baskı, Ankara, "Türk İnkılap Tarihi Enstitüsü" Yayınları, 1959, s. 20-21.

*Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimiz üçün böyük bir bayramdır. Bizə belə böyük bir bayram günü yaşatdığınıza görə səmimi təşəkkürümü təkrar edirəm."*

Bu dönəmdə Azərbaycanın siyasi anlamda Türkiyəyə dəstəyini göstərən bir başqa olay da Azərbaycan hökumətinin Antanta dövlətlərinə Maltada ingilislər tərəfindən tutulan türk əsirlərinin yerinə əllərindəki fransız va ingilis əsirlərini dəyişmə təklifi olmuşdur. Çünkü bolşeviklərin gəlməsiylə burada qalan çox sayda ingilis və fransız əsirlərlə bağlı söz haqqı Azərbaycan hökumətinin əlinə keçmişdi. Necə ki, bu mübadilə təşəbbüsündən bir nəticə alınmamışdı, amma bu hərəkat TBMM-də böyük bir məmnuniyyətlə qarşılanmışdır. Hatta, Azərbaycan hökumətinin bu davranışı Türkiyə millət vəkilləri tərəfindən, "Mondros atəşkəs müqaviləsinin imzalandığı tarixdan etibarən rəncidə edilən Türkiyənin milli namusunu müdafiə edan qardaşcasına bir hərəkat" olaraq dəyərləndirilmişdir. Məsələn, İzmir millət vəkili Mahmud Əsad (Bozkurt), TBMM-yə verdiyi 23 oktyabr 1920-ci il tarixli bir təklifdə bu ifadələrə yer verəcəkdir: *"Qardaş Azərbaycan Hökuməti Maltada zindanlarda inlədilən vətəndaşlarımız sərbəst buraxılmadıqca İngilis əsirlərini İngiltərə hökumətinə verilməyəcəyini rəsmən bildirmişdir. Ateşkəs* anlaşması aktından *bəri rəncidə edilməkdə olan Milli namusumuzu müdafiə etməklə fədakarlığını və qardaşlığını göstərən sevgili Azərbaycana, hökumət namına təşəkkür edilməsini rica və təklif edərəm.*"[46]

Bu dönəmdə siyasi ilişkilər baxımından qeyd edilməsi gərəkən önəmli bir cəhət də Nərimanovun Çiçerin ilə birlikdə "Türk işçi və kəndlilərinə", "imperialist güclərə qarşı müstəqilliklərini qoruma mübarizəsi" aparmaq çağırışıdır.[47]

Yenə Nərimanov 19 Avqust 1920-ci il tarixində TBMM -da oxunan bir məlumatında Türkiyənin istiqlal mücadiləsinin uğura çatmasını Türkiyənin və Azərbaycanın yanında bütün Doğunun (Şərqin) "varlıq səbəbi" olaraq tanınacaq və türk ordusunun uğur qazana bilməsi üçün bütün qüvvələrini səfərbər edəcəklərini ifadə etmişdir.[48]

Türkiyə ilə Azərbaycan arasındakı siyasi müqavimətin bir başqa ölçüsü da, Azərbaycanın, xüsusilə şəxsən Nəriman Nərimanovun sovet rəhbərləri ilə görüşmək istəyən TBMM heyətinə vasitəçilik etməsidir. Məsələn, Türkiyədən Moskvaya gedən TBMM heyətini qəbul etmək istəməyən Çiçerinə bir məktub yazan Nərimanov ona bu görüşün əhəmiyyətini anlatmışdı.[49] Adı çəkilən heyətin başqanı Yusuf Kamal (Tengirşek) bəy də xatirələrində daha öncəki səfərlərində onları kimsənin qarşılamadığı halda, bu da hərbi təntənə ilə qarşılandıqlarını

---

[46] TBMM Riyaseti Başkitabet, Sayı: 458/1092, Kültür Bakanlığı, **Atatürkün Milli Dış Politikası - Milli Mücadele Dönemine Ait 100 Belge (1919-1923),** cilt 1, Ankara "Kültür Bakanlığı" yayınları. 1992 içində s. 173.

[47] **Türkiye Cümhuriyeti Baş Nazirliyi (BA) Arxivi,** 00/09/1919, 930.2/1.4.1.

[48] **TBMM Zabıt Ceridesi 3/299,** 19 avqust 1920.

[49] Adıgüzel, **Atatürk-Nerimanov...,** s. 995.

anladır.[50] Yenə Nərimanov Leninə məktub yazaraq Milli Mübarizəyə (Milli Mücadələyə) dəstək üçün onu təşviq etmişdir.[51]

Bunlardan başqa, Azərbaycanın Ankara təmsilçisi Əbilovun da Türkiyə-Azərbaycan, daha sonra Türkiyə-sovet Rusiyası ilişkilərinin gəlişməsində önəmli iştirakı olmuşdur. Əbilov Mustafa Kamal Paşa ilə cəbhələri gəzərək, *"sadə və aydın bir türkcəylə"* əsgərlərin əzm və iradələrini yüksəltmək məqsədi ilə, *"duyğu dolu"* çıxışlar da edərək ruh yüksəkliyi aşılamağa çalışmışdır.[52] İbrahim Əbilovun Ankarada dünyaya gələn qızının adının Mustafa Kamal Paşa tərəfindən verilməsi[53] onun Türkiyə rəhbərliyi ilə nə dərəcədə isti bir yaxın münasibət qurduğunu göstərən bir başqa göstəricidir.

Digər yandan, Türkiyənin milli ordusunun formalaşması ilə birlikdə, müxtəlif cəbhələrdə qazanmağa başladığı zəfərlər, Azərbaycan türkləri və hökuməti tərəfindən böyük sevine və şadlıqla qarşılanmış, xalq coşqu içərisində zəfərləri bayram etmişdir. Məsələn, 2-ci İnönü zəfərindən sonra (1 aprel 1921-ci il), *"Azərbaycan Şura Hökuməti Rəyasəti", "TBMM Rəisi Mustafa Kamal Paşaya*[1]*"* göndərdiyi bir teleqrafda, *"Qardaş silahın ümumi düşmənə vurduğu zərbəyə görə"* sevinc duyğularını dilə gətirirkən;[54] Nəriman Nərimanov "Azərbaycan Sovet Cumhuriyyəti Rəisi" simasıyla Sakarya zəfərindən (13 senyabr 1921-ci il) sonra nəşr etdirdiyi bir yazıda bu ifadələrə yer verirdi:

"Türkiyənin həyat və hürriyyətini müdafiə edən ordunun qazanmış olduğu parlaq müzəffəriyyətdən meydana gələn məmnuniyyət və bəxtiyarlığı layiqiylə zati-alilərinə ərz etmək üçün söz tapmaqda acizəm. Qəhrəman Türk əskərinin qazandığı bu qalibiyyətə görə Türkiyə Böyük Millət Məclisinə təbrikatı acizanəmin ərz və təbliğini zati-alilərindən istirham edərim. Şərq ərbabi mesai və füqarayə kasibənin Anadolunu müdafiə eyləyən mücadilati qəhramaniyeyi böyük bir əlaqə və diqqətlə təqib etməkdə olduğunu ərz eylərəm."[55]

Digər yandan, yeni vəzifəsinə başlamaq üzrə Ankaraya yollanan İbrahim Əbilov da Sakarya savaşının sona çatmasından bir gün sonra Batumdan göndərdiyi 14 sentyabr 1921-ci il tarixli bir təbrik teleqrafında *"Cəsur Anadolu igidlərinin qəhrəmancasına düşmən endirdikləri bu son müthiş zərbənin Türk millətinin qurtuluşu üçün son qalibiyyət olduğu qənaətindəyəm"* -deyəcək və bu qalibiyyəti,

---

[50] Yusuf kemal Tengirşek, **Vatan Hizmetinde,** Ankara, “Kültür Bakanlığı” yayınları, 1981, s. 203

[51] Adıgüzel, **Atatürk-Nerimanov...,** s. 103-106.

[52] Perinçek, **Atatürkün Sovyetlerle Görüşmeleri,** s. 134.

[53] İbrahim Əbilovun qızı Anadolu xamm Bakıda hazırladığımız reportajda o dönəmdə iki dövlət adamının dostluğu və yaxınlığı ilə bağlı olduqca maraqlı söhbətlər etmişdir.

[54] **DBA,** Sovyet Rusya K. 28, **Atatürk ve Yabancı Devlet Başkanları-I,**
içində s. 402-403.

[55] "Azərbaycan Cümhuriyətinin Təbriki", **"Hakimiyeti Milliye" qəzeti,** 23 sentyabr 1921, Yıl 2, No: 193.

*"Məzlum Şərqin imperialist* və *cəllad Qərbə qarşı* qalibiyyəti olaraq qeyd edəcəkdir.[56]

Yenə TBMM-nin Azərbaycan təmsilçisi Memduh Şövkət bəy Böyük Taarruz və Yunan ordusunun İzmirdə dənizə tökülməsiylə qazanılan zəfər sonrası Azərbaycanda yaşanan sevinci bu ifadələrlə təsvir etmişdir:

"İzmirin geri alınması xəbərini alan əhali, hökumət və mətbuat izhari şadiman etdilər. Bakı bayraqlarla və Baş komandanımızın təsvirləriylə bəzədildi. Azərbaycan Cumhuriyyəti naminə Komissarlar Şurası Rəisi, İcraiyə Komitəsi Rəisi, Hərbiyə Komissarı, Firqə Mərkəz azaları həp birlikdə və ayrıca Xariciyyə Komissarı və bunlarla birlikdə Rus, İran, Buxara, Alman, İtalyan təmsilçiləri, cümlə əsnaf, darülfün tələbələri, Azərbaycan müəllim və müəllimələri və Bakıda bulunan türkmənlər hamılıqla təmsilçiliyimizə gələrək təbrikatta bulundular. Nərimanov da tahrirən (yazılı olaraq) beyani təbrikat eylədi. Xülasə, xalqın sevinci, şadimanı yazıla bilən ifadələrimin qat-qat fövqündə bulunduğunu ərz edərim, əfəndim."[57]

Siyasi əlaqələr mövzusunda son olaraq bunu söyləmək mümkündür: TBMM hökuməti, həm Azərbaycan Xalq Cümhuriyyəti hökumətini, həm də Azərbaycan Sovet Respublikasını müstəqil bir varlıq olaraq qəbul etmiş, ilişkilərini iki müstəqil dövlət arasındakı ilişkilər səviyyəsində qurmuşdur. Eyni zamanda, özəlliklə Nərimanovun rəhbərlik etdiyi hökumətin sovet-rus hegemonluğuna düşməməsi üçün siyasi iradəsini göstərmiş, ancaq dönəmin beynəlxalq şərtləri, Türkiyənin və Azərbaycanın iç siyasi durumları və s. səbəblərlə bundan bir nəticə alınması mümkün olmamışdır.

## 2. İqtisadi əlaqələr

Türkiyənin istiqlal savaşı zamanı Azərbaycan-Türkiyə arasındakı ilişkilərin bir başqa önəmli cəhəti də iqtisadi təməlli olanlardır. Bunun da iki yönlü olaraq meydana çıxdığını görməkdəyik. Birincisi, Azərbaycanın sovet Rusiyasından gələcək yardımlara vasitəçilik etməsi, ikincisi isə, bizzat özünün etdiyi yardımlardır. Araşdırdığımız arxiv bəlgələrindən hər iki mövzu ilə bağlı bilgi və sənədlərə rast gəlinməkdədir.

Milli mübarizə dönəmində sovet Rusiyası xətti ilə önəmli miqdarda yardımın gəldiyini biliri [58] . Bu yardımların Anadolu hökümətinə çatdırıla

---

[56] **DBA**, Sovyet Rusya, K.28 ve Türk-Azerbaycan Münasebatı, 30/A, 18-den aktaran Şimşir, **Atatürk ve Yabancı Devlet Başkanları-I, s. 404.**

[57] **DBA, S. TÜRK. K.37/26,** "Baku Temsilciliğinden Hariciye Vekaletine Tel", 14.9.1922, No.18.

[58] Tarixlərdə Sovet Rusiyasının yardımı olaraq bilinən yardımlarda Türküstan Türklərinin rolu və Buxara Xalq Cümhuriyyətinin göndərdiyi 100 milyon qızıl rubl dəyərindəki yardımın yalnız 10 milyonunun Ankaraya çatdırılması haqqında bax. Abdulhamit Avşar, "İstiklal Savaşına Farklı Bir Bakış: Milli Mübarizə Dönəmində Türkiyə-Türküstan İlişkiləri" sayı 2, Bakı, "Yom" deygisi, 2005, s. 90-91. Yenə bax., Ersin Baş, "Milli Mübarizə dönəmindəki doğu cəbhəsi...", s. 364. Ayrıca, TRT üçün

bilməsində ən önəmli məsələ hansı güzərandan istifadə ediləcəyi məsələsiydi. Bunun üçün yardımlarda Azərbaycan xəttinin tez-tez üstün görüldüyü görünməkdədir. Məsələn, Türkistan türkləri tərəfindən əldə edilən və Rusiya vasitəsilə Anadolya göndərilən 10 milyon qızıl bu yolla Ankaraya çatdırılmışdır.[59] Bundan başqa, TBMM adına Moskvaya görüşmələr üçün gedən Xəlil Paşa vasitəsiylə gətirilən üç sandı- 100 min mədəni lirə dəyərindəki-külçə qızıl da yenə Azərbaycan üzərindən TBMM hökümətinə təhvil verilmişdir.[60]

Ancaq burada əsas qeyd edilməsi gərəkən Azərbaycan Şura Hökümətinin birbaşa etdiyi yardımlardır. Öncəliklə, yuxarıda ifadə edildiyi kimi, Azərbaycanın maliyyə yardımları hələ xalq Cumhuriyyəti zamanından başlamışdır. Şura höküməti iş başına gəldikdən sonra isə bu yardımlar daha da artmış və çeşidlənmişdir.

Yardımların ayrıntılarına girmədən öncə qeyd edilməsi gərəkən bir cəhət də var ki, o da TBMM hökumətinin ilk yardım istəniləcək yerlərin başında Azərbaycanı görməsidir. Bu da Ankaranın Azərbaycanı özünə nə qədər yaxın bildiyinin açıq bir nümunəsidir. Necə ki, 3 May, 1920-ci il tarixində Mustafa Kamalın 15-ci Kolordu Komandanı Kazım Karabəkirə göndərdiyi şifrə teleqraf bununla bağlı olaraq yetərincə bilgi verilməkdədir:

"15-ci Kolordu Komandanı Kazım Karabekir Paşa Həzrətlərinə!" Əldə beş para olmadığı zati ailələrinizə məlumdur. İndilik daxilində bir mənbə də tapılmayır. Başqa tərəfdən təmin edilincəyə qədər Azərbaycan hökümətindən azami miqdarda İstiqraz aktı imkanın araşdırılması və təmin buyrulmasını rica edirəm. Böyük Millət Məclisi Rəisi M.Kamal"[61]

Azərbaycan Şura Höküməti TBMM hökümətinin bu müraciətinə imkanları daxilində cavab verdiyi bir çox bəlgələrdən anlaşılmaqdadır. İlk olaraq, daha öncə də bildirildiyi kimi, Azərbaycan Xalq Cumhuriyyəti dönəmində çekləri təqdim edilən pulun qalan 1 milyon franklıq qismi ödənmişdir. Daha sonra hardasa Qurtuluş savaşı boyunca, o dönəmi içərisində ən çox ehtiyac duyulan maddələrin başında yer tutan mazut, benzin və maye qaz yardımı etmişdir. Məsələn, İnönü savaşlarının ardından Azərbaycan xalqının sevincinin bir əlaməti olaraq, 32 vaqon mazut və benzin ilə 8 vaqon maye qaz göndərmişdir. Bu xəbər o günki qəzetlərdə də yer almışdır. Necə ki, "İkdam" qəzetinin 2-ci İnönü savaşından dərhal sonrakı bir sayında, "Azərbaycan hökuməti Qarsa 40 vaqon neft göndərdi" şəklində bir xəbər yer tutmaqdadır.[62]

---

hazırlanan "Qurtuluş savaşında türküstanlılar" sənədli filiminin 3-cü bölümündə mövzuyla ilgili müxtəlif bəlgələrə və el adamlarının görüşlərinə yer verilmişdir.

[59] Adıgüzel, Atatürk-Nərimanov..., s. 117.

[60] TBMM Başqanı Mustafa Kamal Paşanın Batı Cəbhəsi Komutanı Əli Fuad (Cebesoy) Paşaya yazdığı 16 sentyabr 1920-ci il tarixli və 1347 saylı məktub, Atatürkün **Təmim, Telgraf və Bəyyannamələri (1917-1938),** cil 4 içində s. olaraq təsvir edir. Halil Paşa, Bitməyən Savaş, s. 229-230.

[61] Atatürkün Təmim, Teleqraf və Bəyannamələri (1917-1938), cild 4 içində s. 315-316.

[62] "İkdam" qəzeti, 2 May 1921.

Bundan bir az sonra Ankara Hökumətinə bir məktub göndərən Azərbaycan xarici işlər naziri İstiqlal savaşı sona çatıncaya qədər hər ay 62 vaqon mazut və benzin, 3 vaqon maye qaz göndərəcəklərinə söz vermişdir.[63] Bu aylıq öhdəliklərin yanında Böyük Taarruzdan (hücumdan) öncə 1922-ci ildə Batum yolu ilə 350 ton neft və 9 min tondan artıq maye qaz göndərmişdir.[64]

Bunlarla bir arada, tədqiqatçı Hüseyn Adıgüzelin bildirdiyinə görə, Mustafa Kamal Paşa, 1 Mart 1921-ci il tarixində 2-ci İnönü Savaşından az öncə, Mehmud Şövkət bəy vasitəsiylə Nəriman Nərimanova bir məktub göndərərək maliyyə dəstəyi istəmişdir. Nərimanov bəzi nazirlərin qarşı çıxmağına baxmayaraq, bu istəyə müsbət cavab verərək, hal-hazırda bulunan 500 kq qızılı Ankaraya göndərmişdir.[65] Bu arada Azərabycanın əlində bulunan rus silahları da Türkiyəyə göndərilmişdir.[66]

Bu iqtisadi yardımların sağlanmasında və ümumiyyətlə Azərbaycan-Türkiyə ilişkilərinin gəlişməsində (inkişaf etməsində) yenə İbrahim Əbilovun çox ciddi səylərinin olduğu görünməkdədir. Belə ki, Əbilov, Ərzurum və onun ətrafında neft tapıla biləcəyi yolunda bir sıra araşdırmalar apartdırmış, bu bölgədə Bakı nefti qədər keyfiyyətli bir yatağın ola biləcəyi fikrini müdafiə etmişdir.[67]

Bu dönəmdə Azərbaycan Cumhuriyyətinin öz iradəsini göstərdiyi məsələlərdən biri də ermənilərin törətdikləri insan qırğını nəticəsində yetim və kimsəsiz qalmış uşaqlar üçün edilən yardımlardır. Kazım Karabekir Paşa Müdafiəyi Milliyə Vəkalətinə 1 dekabr, 1920-ci il tarixli məktubundan Gümrüdə Azərbaycan Şura hökuməti tərəfindən 500 ədəd 100-lük Osmanlı qızılı “teberru” (bəxşiş) edildiyini ifadə etməkdədir.[68]

Türkiyə arxivlərində yer alan və bizim görə bildiyimiz bir çox sənədlərdə də Azərbaycandan gələn yardımlarla bağlı müxtəlif ayrıntılar yer tutmaqdadır.

---

[63] Adıgüzel, Atatürk-Nərimanov..., 116

[64] O dönmədə Azərbaycan Anadoluya neftin, Bakı-Batum dəmir yolu ilə göndərildiyi bilinməkdədir. Ancaq, Gürcüstanda qurulan menşevik höküməti vaxtı bu yardımın edilməsinə əngəl olunmuşdur. Necə ki, Azərbaycan Şura Hököməti, 23 mArt 1921-ci il tarixində Türkiyəyə 30 vaqon neft, 2 vaqon benzin və 8 vaqon qaz yağı gətirən qatarın yola çıxarıldığını Ankaraya bildirən yazısında, “Türk xalqına qarşı hər zaman dostluq əlimizi uzatmaq istəyirdik. Ancaq buna gürcü menşevik hököməti əngəl olurdu. Artıq bu gün gürcüstan üzərində də qızıl bayraq dalğalanır” deyərək bu faktı qeyd etməkdədir. Stefanos Yerasimos, Ekim Devriminden “Milli Mücadele”ye Türk Sovyet İlişkileri, istanbul, “Gözlem” yayınları, 1979, s. 355.

[65] Adıgüzel, Atatürk-Nərimanov...s. 117.

[66] Qafqaz İslam ordusu komandanı Nuru Paşa yavəri və sonrakı dönəmdə Atatürkün ən yaxın arkadaşlarından biri olan Kılıç Əlinin oğlu Altemur Kılıç ilə hazırlanan reportajdan, Antalya, 2006

[67] Ərzurum Universitetinin müəllimi Doc. Dr.Betül Aslan ilə hazırlanan reportajdan, Ərzurum, 2006.

[68] Səlcuq Universitetinin müəllimi Prof. Dr.Nuri Köstüklü ilə hazırlanan reportajdan. Kazım Karabekirin qızı Timsal Karabəkir də bu yardımın alındığı babasından eşitdiyini ifadə etməkdədir. Timsal Karabəkir ilə hazırlanan reportajdan, İstanbul, 2005.

Aşağıda bu bəlgələrdən bəzilərinin arxiv nömrələri və mövzularının başlıqları verilmişdir:

**Türkiyə Cumhuriyyəti Cumhurbaşkanlığı Arxivi**:

-"Rus və Azərbaycan səfirləri ilə qərarlaşdırılan yardım sonucunu yaxından bir dəfə təyin etmək üzrə Mustafa Kamal Paşanın Ankaraya gələcəyi haqqında" 56 nömrəli bəlgə.

-"Azərbaycanın edəcəyi yardımları ilə əsirlərimizin yola salınmasına dair Türkiyə Böyük Millət Məclisi Rəisi Mustafa Kamal ilə Xariciyə Vəkili arasında edilən yazışmalar", 9, 9/1, 9/2, 9/3 və 9/4 nömrəli bəlgələr.

-"Azərbaycan tərəfindən hədiyyə edilən qazların Batumdan Samsuna daşınması haqqında" 1 və 1/1 nömərli bəlgələr.

**Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı idarəsinin ATESE Arxivi**:

-" 14 noyabr 1920-ci il tarix və 5844 sıra nömərli "Azərbaycan, bolşevik və gürcülərdən istənilən qaz, mazot və benzin "(İSH-13 A) nömərli bəlgə".

- 19 aprel 1920-ci il tarix və 14036 sıra nömərli "Azərbaycan höküməti tərəfindən Evliye-i Selaseyə məxsus puldan artıq qisminin kol orduya verilməsi" (İSH-16 B) nömrəli bəlgə.

- 26 yanvar 1922-ci il tarixli və 10407 sıra nömərli "Ataları hərbdə şəhid olan Türk çocuqlarının yetişməsi üçün Azərbaycan Cumhuriyyəti hər ay üç sərnıc maye qaz verəcəyi" (İSH-19B) nömrəli bəlgə.

-"14 aprel, 1922-ci il tarix və 11477 sıra nömrəli "İbrahim Əbilov tərəfindən vəd edilən 20.000 ilərinin mövcud olduğunu və haraya göndəriləcəyinə dair" (İSH-19 B) nömrəli bəlgə.

## 3. Hərbi əlaqələr

Milli Mübarizə illərində Türkiyə ilə Azərbaycan əlaqələrində ən az öyrənilən və tədqiq olunan sahələrdan biri də hərbi ilişkilərdir. Daha doğrusu, könüllü Azərbaycan birliklərinin müxtəlif cəbhələrdə Anadolu türkləri ilə çiyin-çiyinə savaşmalarıdır. Bu olay əsas etibarı ilə belə həyata keçirilmişdir: 1920-ci ilin 27 aprel günü XI Qızıl ordunun işğalı nəticəsində Azərbaycan Xalq Cumhuriyyəti yıxılmışdı. Azərbaycan türkləri başlanğıcda bu işğala qarşı çox müqavimət göstərə

bilməsələr də[69], Qızıl ordunun buradan getməyəcəyi anlaşılınca, qısa müddət sonra başqa-başqa bölgələrdə müqavimətlər göstərməyə başladılar. Bunların an güclüsü AXC-nin elan edilməsinin 2-ci ildönümü olan 28 may, 1920-cü ildə Gəncədə oldu. Burada olan 18 min nəfərlik hərbi birlik ayağa qalxdı və şəhəri Qızıl ordu işğalından qurtarmaq üzrə hərəkətə keçdi. Ancaq bu müqavimət çox amansızcasına yatırıldı. Xeyli əsgər edam edildi, əsir alındı və sürgünə göndərildi. Məsələn, bu müqavimət bəhanəsiylə, Gəncə üsyanının ertəsi günü yalnız Nargin adasında bulunan əsirlərdən 79-u edam edildi.[70]

Azərbaycan ordusundan salamat qalan alay böyüklüyünd bir birlik Albay Səməd (Sayqın) bəy komandanlığında Güney Azərbaycan üzərindən Ərzuruma gələrək, Anadolu milli mübarizasi sıralarına qoşuldu.

Azərbaycan hərbi birliklərinin Türkiyə ordusuna qoşulacağı xəbərini ilk önca, Silahlı Qüvvələr Baş Qarargah rəisi sifətiylə İsmət İnönü vermişdir. 8 iyul, 1920-ci il tarixdə TBMM-da ümumi hərbi vəziyyət ilə bağlı bir çıxış edən İsmət bəy Azərbaycandan yardımçı bir qüvvə gəlməkdə olduğunu açıqlamışdır.[71] Sənədlərdən anlaşıldığına görə, bu Azərbaycan birliyinin ilk qədəmi 31 iyul, 1920-ci il tarixdə Hasanqalaya gəldi[72]. Yanlarında Türk ordusunun çox böyük ehtiyac duyduğu səhra topu kamaları (çaxmaqları) da vardı.[73]

Bir piyada taboru va bir süvari alayından ibarat olan bu birlik, dərhal Şərq cəbhəsinə göndərildi.[74] 15-ci Süvari Alayına qoşulan bu birlik, 1920-ci ilin payızından başlayıb,1921-ci ilin əvvəllərinə qədər Doğu Anadolunun ermənilərdən geri alınmasıyla sona çatan Doğu hərəkatına qoşuldu. Sarıqamışın, Qarsın, Gümrünün geri alınmasında önəmli xidmətləri oldu. Azərbaycan türklərindən oluşan 15-ci Süvari Alayı bu başarısına görə çəkirdək qəbul edilərək, onun nəzdində 6-cı Süvari Tümani təşkil edildi. Bu tuman Doğu (Şərq) cəbhəsində İstiqlal Savaşının sonuna qədər vəzifəsini yerinə yetirdi.[75]

Albay Səmədin (Sayqın) komandanlığı altında olan bu hərbi birlikdən başqa, milli mübarizənin müxtəlif cəbhələrində də xeyli azərbaycanlı zabit və əsgər

---

[69] Başlanğıcda nə üçün müqavimət olmadığına dair bəzi görüşlər üçün bax., Müslüman Cemaatten Ulusal Kimliğe, s. 235-243; Halil Paşa, İttihat və Terakkiden Cumhuriyete, s. 218-225; TBMM Gizli Zabıtları (qeydləri), 26. İnikat, 3. Celse, 7 iyul 1920

[70] Swietochowski, Müslüman Cemaatten Ulusal Kimliğe s. 248.

[71] TBMM Zabıt Ceridesi, 2/204, 8 iyul 1920.

[72] Türkiyə Silahlı Qüvvələri Baş Qərargah İdarəsinin ATESE Arxivi, 31.7.1336 tarix və 1661 sıra nömrəli bəlgə "Azerbaycan kıdaatınının ilk kademesinin Hasankaleye geldiği (İSH-11A)"

[73] ATESE, 11.7.1336 tarix və 2899 sıra nömrəl bəlgə "Azerbaycan askerleriyle beraber sahra topu kamalarınının geldiği (İSH-12A)"

[74] ATESE, 11.7.1336 tarih ve 3258 sıra numaralı "Munatazam Azerbaycan ve Osmanlı Askerlerinin trenle cepheye sevkedileceği (İSH-13A)"; 16.7.1336 tarih ve 25 79 sıra numaralı "Türkiyeye gelen Azerbaycan kuvvetleri".

[75] ATESE, 17.11.1336 tarih ve 8004 sıra numaralı "Azerbaycan Süvari Alayının 15. Süvari Alayına iltihak edeceği ve durumda değişiklik olmadığı hakkında malumat (İSH-14B)".

könüllü olaraq xidmət etmişdir.[76] Bunların önəmli bir qismi, İstiqlal Savaşından sonra da orduda qalmış və müxtəlif üst rütbələrə qədər yüksəlmişdir. Bunların arasında, Albay Yusif Xəzərli, Topçu Albay Mehmed Akpolat, Topçu Albay Aslan Berkan, Albay Salih Aksoy, süvari Albay Firidun Daryal, hava General Cihangir Berker, hava General Hüseyin Turgut ilk anda sayıla biləcək onlarca isimlərdən bəziləridir.

Azərbaycan milli ordusunun dağılması ilə Türkiyəyə gələrək Qurtuluş Savaşına qatılan azərbaycanlı zabitlərlə birlikdə milli mübarizə dönəmində Azərbaycanlı zabitlərdən ibarət kiçik bir qrup da vardı. Bunlar, Azərbaycan Xalq Cumhuriyyəti ilə Osmanlı Dövləti arasında bağlanmış olan hərbi müqavilə asasında İstanbulda təlim görən zabitlər idi. Onlar da təlimlərini tamamladıqdan sonra türk ordusuna qatılmışlar və ən yüksək rütbələrə qədər yüksəlmişlər. Bunların arasında ordu generalı Mahmud Berköz ilə Jandarma Baş Komutanlığında (Daxili Qoşunlar Komandanlığı) bulunan ordu generalı Nuri Berközü, bir dönəm Qars millət vəkili olan Kurmay Albay Hüsamettin Topaçı yad edə bilərik.

## Sonuç

Əlbəttə, bütün bu yazdıqlarımız, Türkistan türklərinin Milli Mübarizəyə qatıldıqlarını anladan sənədli filmdə də vurguladığımız kimi, Milli Mübarizə dövründə Anadolu Türklərinin göstərdikləri qeyrət, yüksək əzm və mübarizə ilə müqayisə etdikdə.simvolik sayıla biləcək yardımlardandır. Ancaq bunu göstərmələri baxımından önəmlidir: Türkiyə türkləri, I Dünya savaşı sırasında, içində bulunduqları çətin şərtləri nəzərə almadan Azərbaycanlı qardaşlarının yardımına tələsdikləri kimi, Azərbaycan türkləri də, Türkiyə türklərinin İstiqlal savaşı illərindəki çətin günlərində əllərindəki imkanlar daxilində həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan onların yanında olmuşlar. Bu yazını meydana çıxarmanın əsas məqsədi budur və bu anlamda İstiqlal Savaşı dönəmində Azərbaycan türklərinin dəstək və qatqıları mütləq tarixə düşməlidir.

Bütün bu anladılanların işığı altında, İstiqlal Savaşında Azərbaycanın yardımlarını tam dolğunluğu ilə vurğulamaq məqsədi ilə qələmə alınan bu əsəri Azərbaycan Şura Hökuməti başçısı Nəriman Nərimanovun, 23 mart, 1921-ci il tarixində Atatürkə yazdığı bir məktubda yer verdiyi bu ifadələr ilə bitirmək istəyirəm:

"Paşam,Türk millətinin bir gələnəyi (ənənəsi) vardır; qardaş qardaşa borc verməz. Qardaş hər durumda qardaşın əlindən tutar... Biz qardaş xalqlarız. Hər zaman və hər şərtdə (istənilən; şərtdə), bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi mütləq bir ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınıız olaraq əlinizdən tutmağa çalışacağıq. İmkanımız çatdığı qədər pul

[76] ATESE, 14.9.1336 tarih ve 4625 sıra numaralı “Azerbaycan kıdaatının Şark cephesi emrinde kalması (İSH-10A)” ve 17.9.1336 tarih ve 4713 sıra numaralı aynı konulu sənədlər.

göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz, bir qardaşın, öz qardaşı üçün etmək istədiyindən başqa bir şey deyildir."[77]

[77] Azərbaycan Respublikası Siyasi Partiyalar və Sosial Hərəkatlar Dövlət arxivi, fond 609, vərəq1, iş 187s. 11-dən, Nəriman Nərimanov, Məktuplar, dərləyən Hüseyin Adıgüzel, İstanbul, “İleri” yayınları, 2005, s. 110. Ayrıca, Doğan Avcıoğlu, Milli Kurtuluş Tarihi, cild 3, İstanbul, “Tekin” yayın evi, 1978, s.438.

# Ədəbiyyat

## Kitab və məqalələr


- Abdulhamit Avşar, "İstiklal Savaşına Farklı Bir Bakış: Milli Mücadele Dönəmində Türkiyə - Türkistan İlişkiləri", Bakı **"YOM"** dergisi, sayı 2,, 2005, s. 90-91.
- Abdulhamit Avşar, "Türk Kafkas İslam Ordusu"nun Çocukları", Bakı "YOM" dergisi, sayı 4,, 2006, s. 110-115.
- Anadolu Əbilova, **İbragim Əbilov-Azerbaycanskiy Druq Ataturka,** Baku, "AzAtaM" yayınları, 2003.
- **Atatürkün Söylev ve Demeçleri,** cild 2, 1. baskı, Ankara, "Türk İnkılap Tarihi Enstitüsü" yayınları, 1959.
- **Atatürkün Tamim, Telgraf və Beyannameleri (1917-1938),** cilt 4, Ankara, "Atatürk Araştırma Merkezi" yayınları, 1991.
- " Betül Aslan, **1. Dünya Savaşı Esnasında Azərbaycan Türklerinin Anadolu Türklerine "Kardeş Kömeği (Yardımı)" ve Baku Müslüman Cemiyeti Hayriyesi,** Ankara, "Atatürk Kültür Merkezi Başkanlığı" yayınları, 2000.
- Bilal N. Şimşir, **Atatürk ve Yabancı Devlet Başkanları,** cilt 1, Ankara, "Türk Tarih Kurumu" yayınları, 1993
- Cemil Hasanlı, **Azerbaycan Tarihi 1918-1920 (Türkiyenin Yardımından Rusyanın İşgaline Kadar),** çev. Aslan Erturun, Ankara, "Azerbaycan Kültür Derneği" yayınları, 1998.
- Doğan Avcıoğlu, **Milli Kurtuluş Tarihi,** cilt 3, İstanbul, "Tekin" yayın evi, 1978.
-Ersan Baş, "Milli Mücadele Dönemindeki Doğu Cephesi Muharebelerinin Türk-Kafkas İlişkileri İçerisinde İncelenmesi ve İstiklal Savaşındakı Yeri ve Önemi", **Sekizinci Askeri Tarih Semineri Bildirileri,** Cilt 2, (Sunulmayan Bildiriler), Ankara,
-"Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı" yayınları, 2003, s. 355-356
- Halil Paşa, **İttihat ve Terakkiden Cumhuriyete - Bitmeyen Savaş,** haz. Taylan Sorgun, 2. baskı, İstanbul, "Kum Saati" yayınları, 2003.
- Hüseyin Adıgüzel, **Atatürk-Nerimanov ve Kurtuluş Savaşımız,** 2. baskı, İstanbul, "İleri" yayınları, 2006.
-"Kazım Karabekir'in Genelkurmay Başkanlığı"nın Evliyei Selase'nin Geri Alınmasıyla İlgili Harp Raporu,", Ankara, **"Askeri Tarih Belgeleri"** dergisi, Ocak 1999, Sayı 107.
- Mehman Süleymanlı, **Qafqaz İslam Ordusu və Azərbaycan,** Bakı, "Hərbi" nəşriyyat, 1999.

- Mehmet Perinçek, **Atatürkün Sovyetlerle Görüşmeleri,** İstanbul, "Kaynak" yayınları, 2005.
- Musa Qasımlı, **Birinci Dünya muharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti,** 3 cilt, Bakı, Adıloğlu Nəşriyatı, 2004.
- Naki Keykurun, **Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920),** İlke Yayınları, İstanbul, 1964.
- Nasır Yüceer, **Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Harekatı - Azerbaycan ve Dağıstanın Bağımsızlığını Kazanması** 1918, 2. baskı, Ankara, "Genelkurmay Başkanlığı" yayınları, 2002.
- Neriman Nerimanov, **Mektuplar,** dər. Hüseyin Adıgüzel, İstanbul, "İleri" yayınları, 2005.
- Rahmi Apak, **Yetmişlik Bir Subayın Hatıraları,** Ankara "Türk Tarih Kurumu" yayınları", 1988, s. 113-114.
-Stefanos Yerasimos **Ekim Devriminden "Milli Mücadele"ye Türk-Sovyet İlişkileri,** İstanbul, "Gözlem" yayınları, 1979.
- SSCB Bilimler Akademisi, **Ekim Devrimi Sonrası Türkiye Tarihi,** çev. A. Hasanoğlu, İstanbul, "Bilim" yayınları, s. 24-25.
- TC. Kültür Bakanlığı, **Atatürkün Milli Dış Politikası - Milli Mücadele Dönemine Ait 100 Belge (1919-1923),** cilt 1, Ankara, "Kültür Bakanlığı" yayınları, 1992.
- Tadeusz Swietochowski, **Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı (1905-1920),** çev. Nuray Mert, İstanbul, "Bağlam" yayınları, 1988.
- Utkan Kocatürk, **Atatürk Çizgisinde Geçmişten Geleceğe, Atatürk ve Yakın Tarihimize İlişkin Görüşmeler, Araştırmalar, Belgeler,** Ankara, "Atatürk Araştırma Merkezi" yayınlan, 2005.
- Yusuf Kemal Tengirşek, **Vatan Hizmetinde,** Ankara, "Kültür Bakanlığı" yayınları, 1981.

## Arxiv sənədləri

Türkiyə Cumhuriyyəti Cümhurbaşqanlığı Arxivi
-TBMM Arxivi
-TBMM Gizli Zabıtları (Qeydləri)
-TBMM Zabıt Ceridesi (Müzakirə Qeydləri)
-Türkiyə Respublikası Baş Nazirliyi (B.A.)Arxivi
-Türkiyə Silahlı Qüvvələri Baş Qərargah İdarəsinin ATESE Arxivi
-Türkiyə Respublikası Xarici İşlər Nazirliyi (D.B.A.) Arxivi.

## Qəzetlər

-«Açıksöz»
-«Hakimiyeti Milliye»
-«İfham»
-«İkdam» «İzmire Doğru»
-«Vakit» «Yeni Gün»

## Reportaj yapılanlar

-Altemur KILIÇ - Kılıç Alinin oğlu / Antalya
-Anadolu ƏBİLOVA - İbrahim Əbilovun qızı / Bakı
-Prof. Dr. Aygün ATTAR - Dumlupınar Üniversiteti / Kütahya
-Doç Dr. Betül ASLAN -Atatürk Üniversiteti / Erzurum
-Prof. Dr. Cemalettin TAŞKIRAN - Kınkkale Üniversiteti / Kırıkkale
-Yrd. Doç Dr. İsmet GÖRGÜLÜ - Başkent Üniversiteti / Ankara
-Dr. Muhammet KENGERLİ - Ankara
-Prof. Dr. Mustafa KESKİN -Erciyes Üniversiteti / Kayseri
-Prof. Dr. Nuri KÖSTÜKLÜ - Selcuk Üniversiteti / Konya

*Yığılmağa verilib 11.01.2007.*
*Çapa imzalanıb 24.02.2007.*
*Şərti çap vərəqi 3. Sifariş N° 29.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab «**Nurlun**» nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail: nurlun 1959@yahoo. com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*